RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 74 (8390) BAZAR, 19 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 94,7 faizlik inam və etimad ünvanı

## Mütləq əksəriyyətin etibar etdiyi Prezident İlham Əliyev 17 illik bənzərsiz fəaliyyəti ilə ümumxalq sevgisini qazanıb

- *94.7 faiz Prezidentə etibar edir;*
- *93 faiz koronavirusla bağlı həyata keçirilən tədbirləri müsbət dəyərləndirir;*
- *92,8 faiz ictimai qınağa Prezidentin göstərdiyi reaksiya ilə həmrəydir;*
- *91 faiz Prezidentin gənc kadrları vəzifəyə təyin etməsini alqışlayır;*
- *89.2 faiz sağlamlığın qorunmasında dövlət siyasətini təqdir edir;*
- *87.8 faiz sosial-iqtisadi islahatları alqışlayır;*
- *87.8 faiz problemlə qarşılaşdığı zaman dövlətin dəstək göstərəcəyinə inanır;*
- *85.6 faiz karantin məhdudiyyətlərinin tətbiq edilməsinə müsbət yanaşır;*
- *84 faiz kütləvi tədbirlərin qadağan edilməsini dəstəkləyir;*
- *82.4 faiz tədrisin dayandırılmasına müsbət yanaşır.*

Bu, Azərbaycan reallığını əks etdirən sosioloji sorğunun nəticəsidir. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən açıqlanan sorğunun nəticələrindən də göründüyü kimi, ölkə əhalisinin mütləq əksəriyyəti Prezident İlham Əliyevin fəaliyyətini, onun qlobal təşəbbüslərini, həyata keçirdiyi sosial-iqtisadi, siyasi islahatları, daxili və xarici diplomatiyanı, o cümlədən dünyanı bürüyən koronavirus pandemiyası dövründə gördüyü qabaqlayıcı tədbirləri tam dəstəkləyir.

Cənab İlham Əliyevin son dövrdə ölkədə həyata keçirilən inqilabi islahatlarla bağlı cəmiyyətin ictimai rəyinə müstəsna əhəmiyyət verməsini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi 2019-cu ildən etibarən yeni formatlı sosioloji sorğulara start verib. Bu sorğular islahatlarla bağlı ictimai rəyin rüblük (3 aylıq) monitorinqi baxımından ölkədə bir ilk olmaqla yanaşı, həm də sosial proseslərin dinamikasını və ictimai rəydə dəyərləndirilməsini daha operativ izləməyə imkan verir.

Təqdim edilən növbəti hesabat 2020-ci ilin ilk rübünü (yanvar-mart) əhatə edir. Sosioloji sorğu əsaslı bu analitik hesabatın məqsədi bəhs edilən müddətdə dövlət başçısının daxili və xarici siyasətinin başlıca məqamları, ölkədəki ictimai-siyasi proseslərin vəziyyəti ilə bağlı xalqın rəyinin operativ öyrənilməsi, qanunverici, icraedici hakimiyyət və hüquq mühafizə sistemində gedən proseslərə cəmiyyətin münasibətini çevik dəyərləndirməklə ümumi mənzərənin göz önündə canlandırılması, müvafiq qərarların qəbulunda mötəbər mənbə kimi həm də ictimai rəyə istinad edilməsinə şərait yaratmaqdır.

Rəy sorğusunda dövlət başçısının həm daxili, həm də xarici siyasət sahəsində çoxşaxəli fəaliyyətini izləməyə imkan verən, siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan, rəsmi xronikada, eləcə də yerli və xarici mediada geniş işıqlandırılan hadisələr əksini tapıb.

Beləliklə, 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin və dövlət başçısına inam indeksinin öyrənilməsi üçün keçirilən sorğunun nəticələri ən qısa şəkildə belə ifadə edilə bilər:

Ardı 5-ci səh.

# Prioritetlərdən biri də iqtisadi fəallığı artırmaqdır

**Prezident İlham ƏLİYEV:** “Addımlarımızı elə atmalıyıq ki, postkarantin rejiminə daha hazırlıqlı olaq”

“Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir”. Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda bu fikri bir daha vurğulamışdır.

Dövlət başçısı eyni zamanda qeyd etmişdir ki, COVID-19-la bağlı yaranmış şəraitdə iqtisadi sahəyə də böyük diqqət yetirilməlidir. Çünki yalnız güclü iqtisadi imkanlar olduqda uğurlu sosial siyasət həyata keçirmək mümkündür. Xüsusilə pandemiyadan irəli gələn fəsadlar böyük həcmdə maliyyə vəsaiti tələb edir.

Beləliklə, Prezident günümüzün prioritet təşkil edən üç mühüm məsələsini bir daha nəzərə çatdırmışdır. Bunlar insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Pandemiya davam etdiyi üçün bununla əlaqədar aztəminatlı ailələrin problemlərinin daha geniş şəkildə həll edilməsi önə çəkilmişdir. Dövlət başçısı bu barədə demişdir: “İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür”.

Aztəminatlı ailələrə önəmli bir dəstək mexanizmi kimi ünvanlı sosial yardım proqramı yenə də müvəffəqiyyətlə icra edilir. Prezidentə məlumat verilmişdir ki, artıq 80 min ailə, 330 mindən çox fərd ünvanlı sosial yardım proqramı ilə əhatə olunub. Aprelin 1-i ilə müqayisədə artım 10 min ailə və ya 36 min şəxsdir. Dövlət başçısının tapşırığına uyğun olaraq onların sayı mütəmadi şəkildə artırılacaq.

Ardı 5-ci səh.

# Prezident hökumətə ciddi tapşırıqlar verdi

## İlham Əliyev qlobal pandemiya dövründə dövlət xərclərinə yenidən baxılması, prioritet təşkil etməyən vəsaitlərin ixtisar edilməsinin vacibliyini bəyan etdi

Dünya koronavirusla mübarizədə hələ də yenilsə də, pandemiyanın vurduğu və ya vura biləcəyi maddi itkilərdən, zərər və ziyanlardan ötüşmək, sığortalanmaq üçün ciddi addımlar, qabaqlayıcı tədbirlər görülür. Bu ölkələrdən biri də Azərbaycandır. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans zamanı dövlət başçısının söylədiyi kimi, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində Azərbaycan hökuməti vəziyyəti nəzarət altında saxlayır. Məhz düzgün istiqamətdə atılan addımlar bu gün uğurlu nəticələr verir.

### Əlavə 150 milyon manat ayrılacaq

Bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qlobal problemə qarşı çox ardıcıl və qətiyyətli mübarizə aparılır. Dövlət başçısının təşəbbüsü ilə hazırlanan dəstək proqramları həm sahibkarlıq subyektlərinə, həm də xalqın sosial rifah halının yaxşılaşdırılması prosesinə əlavə stimul vermiş oldu.

Qəbul edilmiş proqramların icrası üçün 2,5 milyard manat vəsait ayrılsa da, dövlət başçısı bu vəsaitin 150 milyon manat da artırılacağını qeyd etdi. Yəni əlavə ayrılacaq vəsait 2,5 milyard manatın içində deyil.

Qeyd edək ki, mövcud büdcə qanunvericiliyi çərçivəsində ilkin olaraq bir sıra xərclərin ixtisarı və təyinatının dəyişdirilməsi, həmçinin Prezidentin Ehtiyat Fondunun və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən koronavirusla mübarizə, iqtisadiyyata mənfi təsirlərin azaldılması tədbirlərinin maliyyələşdirilməsi üçün hələlik 1 milyard 350 milyon manat məbləğində vəsait yönləndirilib.

Artıq iqtisadi və sosial paketə əsasən 44 min sahibkarlıq subyektində çalışan 304 min muzdlu işçinin əməkhaqlarının dövlət tərəfindən ödənilməsinə başlanılıb. Həmçinin dövlət dəstəyindən mikro və fərdi sahibkar faydalanır. Bununla yanaşı, sahibkarlıq subyektləri üçün biznesə vergi güzəştləri və imtiyazlar veriləcək, ipoteka kreditləri dəstəklənəcək, vergi ödəyicilərinin bank kreditlərinə dəstək veriləcək.

Prezident İlham Əliyev aprelin 14-də sərəncam imzalayaraq koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəsaitinə ehtiyacının qarşılanması məqsədilə aqrar sektorda təminatsız mikrokreditlərin verilməsi üçün Ehtiyat fondundan 30 milyon manat vəsait ayırdı.

Həmçinin Nazirlər Kabinetinin “Əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcminin tənzimlənməsi ilə bağlı tədbirlər haqqında” Qərarına əsasən, əhali üzrə elektrik enerjisinin 7 qəpik/kilovat-saat tarifi tətbiq olunan aylıq istehlak həcmi 2020-ci ilin aprel ayından etibarən iki ay müddətində 100 kilovat-saat artırılaraq 400 kilovat-saata çatdırıldı. Qərara başlıca səbəb xüsusi karantin rejiminə uyğun olaraq əhalinin evdə qalması ilə bağlı elektrik enerjisindən istifadənin çoxalmasıdır.

Ardı 5-ci səh.

# Təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin mayın 2-dək dayandırılması barədə qərar imzalanıb

COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi 2020-ci il aprelin 20-dən mayın 2-dək (ilk tədris günü mayın 4-ü müəyyən edilir) dayandırılıb və bununla bağlı bütün tədbirlər təxirə salınıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov bununla bağlı aprelin 18-də “Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin dayandırılması barədə” Qərar imzalayıb.

Qərarda bildirilir ki, Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər bu Sərəncamın icrası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etsinlər.

◆ Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# Xalq Prezidentinə tam güvənir



## Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına davamlı şəkildə yazılan minnətdarlıq məktublarından bu daha aydın hiss olunur

Dünyanı çənginə almış koronavirus pandemiyasının qarşısının alınması üçün görülən profilaktik və qabaqlayıcı tədbirlər artıq öz bəhrəsini verməkdədir. Doğrudur, Ümumdünya Səhiyyə Təşkilatının yaydığı son rəqəmlərin hər saat dəyişməsinə rəğmən konkret nəticə söyləmək hələ tezdir.

Hər gün dəyişilən rəqəmlər situasiyanın artan-azalan şkalasında “rəqs etməkdə”dir. İlk dəfə virusun peyda olduğu Çin Xalq Respublikasının Uhan əyalətindən bütün dünyaya yayılması - qitələri bürüməsinin yaratdığı təşviş qismən aradan qaldırılmaqdadır. Bunun da bəzi səbəbləri var. Onlardan biri də təbii ki, pandemiyanın qarşısını alan qabaqlayıcı tədbirlərin görülməsi, insanların açıq havada və bir-biri ilə sıx təmasdan uzaqlaşdırılması, yoluxmaların dəqiq siyahısının çıxarılması üçün əhalinin testlərdən keçirilməsi, səhiyyənin və tibbin ən son nailiyyətlərinin tətbiqi, o cümlədən xəstəxana və poliklinikaların ciddi iş rejiminə keçirilməsi kimi vacib amillərdir.

Ardı 2-ci səh.

# Operativ Qərargah: “Ölkə ərazisində xüsusi karantin rejimi mayın 4-dək uzadıldı”

Hazırda dünya ölkələri bütün səylərini yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizəyə və profilaktika tədbirlərinə yönəldib. 2020-ci il mart ayından etibarən COVID-19 xəstəliyi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunaraq virusun qarşısının alınması istiqamətində bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilir. Bütün bunlara baxmayaraq, hazırda dünyada 2 milyon 160 min 207 nəfər COVID-19 virusuna yoluxub, 146 min 88 nəfər vəfat edib.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, COVID-19 virusunun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən 2020-ci il yanvar ayından zəruri qabaqlayıcı tədbirlər görülüb, profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradılıb.

Ardı 3-cü səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

Əvvəli 1-ci səh.

### Prezident imkansız ailələrə yardım göstərənlərə təşəkkür etdi

"Həssas təbəqənin qorunması hesab edirəm ki, indiki şəraitdə ən vacib məsələdir. Biz onlara sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik".

Bunu Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə deyib. Dövlət başçısı bildirib ki, Azərbaycan xalqının əsrlər boyu yaşatdığı bəzi gözəl xüsusiyyətləri bu gün bütün xalqımız nümayiş etdirir: "Biznes dairələri öz təşəbbüsləri ilə imkansız adamlara kömək göstərirlər və mən bunu alqışlayıram. Bu, biznesin sosial məsuliyyətinin təzahürüdür. Kimin nəyə gücü, imkanı çatırsa, kimsəsiz insanlara, ahıl insanlara, həssas təbəqədən olan insanlara kömək göstərin. Əlbəttə ki, dövlət öz üzərinə bu funksiyanı götürüb, bunu edir və edəcək. Ancaq biznes dairələrinin bu şəraitdə bu işlərə qoşulması və ayrı-ayrı insanların öz təşəbbüsü ilə ehtiyacı olan insanların yanında olması məni hədsiz sevindirir, onlara öz təşəkkürümü bildirmək istəyirəm. Yerli icra orqanları şərait yaratmalıdır ki, onlar bu yardımı daha böyük həcmdə etsinlər. O ki qaldı həssas təbəqədən olan tələbələrə, 17 min tələbənin ödənişi dövlət tərəfindən təmin ediləcək. Bu, çox gözəl addımdır və buna da tam nəzarət olmalıdır ki, heç kim bu proqramdan kənarda qalmasın".

### Əhalinin məşğulluq imkanlarının artırılması sosial güc deməkdir

Azərbaycan Prezidentinin Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirləri ilə keçirdiyi videogörüşdə bir daha qeyd edildi ki, məşğulluq orqanlarının fəaliyyəti gücləndirilib. DOST İş Mərkəzi vasitəsilə aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanıb. Bunun üçün 30 milyon manat vəsait ayrılıb. Artıq 5 min şəxs işə cəlb edilib. Ümumilikdə ictimai iş yerlərinin sayı 90 minə çatıb. Xüsusi karantin rejimi başlayanadək 38 min şəxs bu işlərə cəlb edilib.

Bütün bu görülmüş xüsusi təyinatlı tədbirlər, ilk növbədə, ölkə əhalisinin sağlamlığının qorunması, vətəndaşların, xüsusən də həssas təbəqənin, sosial müdafiəyə ehtiyacı olanların pandemiyadan az zərər çəkməsinə hesablanan humanitar siyasət diqqətdən kənarda qalmır. Azərbaycan Prezidenti İlham Əliyevə yazılan və sosial şəbəkələrin gündəmini təşkil edən məktubların ünvanları müxtəlif, məna və məzmunları eynidir: dövlət başçısının ətrafında daha sıx birləşməklə bu bəladan xilas olmaq, görülən və davam etdirilən özünütəcrid kampaniyasına qoşulmaq.

Tünzalə Nəbiyeva Ağdamdan məcburi köçkündür. Yazır ki, hörmətli Prezident, dünyada geniş yayılmış koronavirus pandemiyasının respublikamızda qarşısının alınması istiqamətində gördüyünüz bütün tədbirlər bir daha sübut etdi ki, hər zaman olduğu kimi, Azərbaycan Prezidenti öz xalqının yanındadır: "Rəhbərliyinizlə vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronavirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Bu mübarizə tədbirləri üçün imzaladığınız sərəncamlar, açılan yeni xəstəxanalar, fabriklər göstərir ki, Azərbaycan bu çətin sınaqdan alnıaçıq çıxacaq. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma bütün qarabağlılar, o cümlədən ağdamlılar adından təşəkkürümü bildirir, ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Uca Allah Sizi və Azərbaycan xalqını qorusun".

### Xalqımız böyük qəlbli, uzaqgörən Prezidenti ilə fəxr edir

Belə məzmunlu məktublardan birinin müəllifi də Azərbaycan Texniki Universitetinin tələbəsi Nuriyev Orxan Rövşən oğludur. Məktubda deyilir: "Cənab Prezident! Azərbaycanımızda həyata keçirdiyiniz məqsədyönlü sosial-iqtisadi siyasətinizə, strateji hədəflərə istiqamətlənən addımlarınıza, yaratdığınız şəraitə görə Sizə dərin təşəkkürümü bildirirəm, çünki bir gənc olaraq bu, məni çox qürurlandırır.

Dünyada tüğyan edən COVID-19 pandemiyası ölkəmizdə də əsas müzakirə mövzusudur. Bir çox dövlətlərdən fərqli olaraq, Sizin müdrik, uzaqgörən siyasətiniz sayəsində Azərbaycanda pandemiyanın geniş yayılmasına qarşı tez reaksiya göstərildi: Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkə ərazisində xüsusi karantin rejimi elan edildi.

Hörmətli Prezident! Tapşırığınıza əsasən, ölkəmizdə inşa edilən, müasir standartlara cavab verən "Yeni klinika"nın açılması, tibbi maskaların, dezinfeksiya vasitələrinin istehsalına başlanılması, karantin rejimində aztəminatlı ailələrə, həmçinin yaranmış vəziyyətdən əziyyət çəkən sahibkarlara lazımi dəstəyin verilməsi ilə bağlı əhəmiyyətli qərarların qəbul edilməsi, yaşlı insanlara yardım göstərilməsi onların sosial rifahının, sağlamlığının, təhlükəsizliyinin sizin üçün hər şeydən vacib olduğunun göstəricisidir. Bunun üçün Sizə ailəmiz adından sonsuz minnətdarlığımızı bildirirəm. Xalqımız sizin kimi böyük qəlbli, müdrik, uzaqgörən Prezidenti ilə fəxr edir".



# Xalq Prezidentinə tam güvənir

## Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına davamlı şəkildə yazılan minnətdarlıq məktublarından bu daha aydın hiss olunur

### Cənab Prezident! Sizinlə qürur duyur və Sizinlə birgəyik

Bakı şəhərinin Xətai rayonundan Nuranə Məmmədzadənin göndərdiyi məktub da maraqlı və səmimidir: "Mən bir gənc olaraq dövlət başçısının həyata keçirdiyi islahatları və ölkəmizin rahatlığı üçün etdiyi çıxışları sosial media və televiziyalar vasitəsilə yaxından izləyirəm. Bu sadəcə məlumat almaq və ya gündəmdən xəbərim olmaq üçün deyil. Cənab Prezident, bunu Sizin idarəetmə sisteminizə olan pərəstişkarlığım kimi qəbul edirəm. Burada xarici ölkələrin dövlət xadimləri ilə aparılan danışıqlarda uzaqgörənliyiniz və hələ bu yaşda müdrikliyiniz məni bir vətənpərvər gənc olaraq qürurlandırır. Hər dəfə Sizi televiziyada müəyyən məsələlərlə bağlı çıxış edərkən görən şəxslərin, ya da gənc kadrların dövlətçiliyə, millətə olan bağlılığı bir daha artır. Sizin kimi rəhbərimiz olduğu üçün qürur duyur və gördüyünüz işləri hər zaman dəstəkləyirik".

Məktubda daha sonra qeyd edilir ki, son bir neçə ay ərzində dünyanı öz əsarəti altına almış COVID-19 adlı virus təəssüf ki, Azərbaycanımızın da başını qara bulud kimi örtməyə başladı: "Lakin, möhtərəm Prezidentimiz, Sizin düşünülmüş uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə digər dövlətlərə nisbətən tez karantin elan edilməsi COVID-19 virusuna yoluxanların sayının az olması ilə nəticələndi. Bu çətinlikdə bizə, ölkəsinə hər cür maddi və mənəvi dəstəyi əskiltməyən, hər bir işdə, problemimizin həllində yanımızda olan hörmətli Prezidentimiz, Sizə təşəkkür edirik. Sizə uğurlu fəaliyyətinizdə sonsuz nailiyyətlər arzulayırıq. Allah Sizi və ailənizi bütün bəlalardan hifz etsin".

### Atılan uğurlu addımlar, verilən müdrik qərarlar...

Ənvər Əsgərov isə Azərbaycan Prezidentinə ünvanladığı təşəkkür dolu məktubunu ölkəmizin qonşu Gürcüstan Respublikası ilə sərhədində yerləşən Ağstafadan yazıb. Məktubda qeyd edilir ki, bir yaradıcı gənc olaraq mən, cənab Prezident, Sizin gördüyünüz bütün tədbirləri diqqətlə izləyir və buna görə də minnətdarlığımı bildirirəm: "Hörmətli cənab Prezident, xüsusilə də ölkə vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz layihələr, atdığınız uğurlu addımlar təqdirəlayiqdir. Koronavirus pandemiyasının dünyada geniş yayıldığı bir vaxtda Siz xaricdə təhsil alan tələbələrimizi daim diqqətdə saxlayır, belə çətin vəziyyətdə onlara həm mənəvi, həm də maddi dəstək göstərirsiniz. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparır və əminik ki, bundan da qalib ayrılacağıq.

Əziz Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə bir gənc kimi Sizə təşəkkür edir, müstəqil Azərbaycanımızın daha da çiçəklənməsi uğrunda gələcək işlərinizdə nailiyyətlər arzulayıram!"

### Biz birlikdə bu pandemiyaya da qalib gələcəyik!

Bakının Xətai rayonundan məktub yazan Elvira Bayramovanın fikrincə, ölkə başçısının bu çətin günlərdə yürütdüyü siyasət əsasən əhalinin pandemiyadan sağ-salamat, az itki ilə çıxmasına hesablansa da, bütün sahələrə öz müsbət təsirini göstərir. Bu gün xalqımız daha sıx birlik və həmrəylik nümayiş etdirir. Azərbaycan Prezidentinin hər bir çağırışı qeyd-şərtsiz, birmənalı şəkildə qəbul olunur: "...Hörmətli Prezident! Ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlər artıq dünyanın nəzər-diqqətini çəkir və nümunəyə çevrilir. Pandemiyanın vaxtında qarşısının alınması ölkənin nəinki əhalisinin sağlamlığı baxımından, həm də sonrakı dövrdə iqtisadiyyatın iflic olmasının qarşısının alınmasında mühüm əhəmiyyət daşıyır. Azərbaycana sevginizdən, xalqımıza məhəbbətinizdən biz də nümunə götürürük! Sizə təşəkkür edir, müstəqil Azərbaycanımızın daha da çiçəklənməsi uğrunda gələcək işlərinizdə nailiyyətlər arzulayırıq.

Əlbəttə, son vaxtlar yaşanan hadisələrdə vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz məqsədyönlü qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparır və əminik ki, biz qalib gələcəyik.

Cənab Prezident, insanların sağlamlığının qorunması məqsədilə Sizin tapşırığınızla ehtiyacı olanlara sosial-humanitar yardımlar göstərilir. Aztəminatlı, eləcə də sosial müdafiəyə ehtiyacı olan ailələrə birdəfəlik 190 manat vəsaitin verilməsi inkişaf etmiş Avropada təəccüb və heyranlıqla qarşılandı. Xalqımıza bu sınaq günlərində bir daha sübut edirsiniz ki, Siz daim xalqın yanındasınız! Sizi xalq buna görə çox sevir və siyasətinizi dəstəkləyir. Biz sizinləyik! Biz birlikdə bu pandemiyaya da qalib gələcəyik! Gördüyünüz qabaqlayıcı tədbirlər bir daha sübut edir ki, Siz daim xalqımızı düşünür və hər vətəndaşın qayğısına qalırsınız.

İndiki ağır günlərdə daim xalqın yanında olduğunuz və vətəndaşların qayğısına qaldığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Qürur duyur, fəxr edirik ki, Sizin kimi dövlət başçımız var".

Azərbaycan Prezidentinin ünvanına göndərilən təşəkkür və minnətdarlıq dolu məktubların arasında Ermənistanın işğalçılıq siyasətinin qurbanlarına çevrilmiş məcburi köçkünlərin sayının çox olması da diqqətçəkən məqamlardandır. Göygöl rayonunun ərazisində salınmış 600 ailəlik qəsəbədən bir qrup kəlbəcərli məcburi köçkünün - Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının 600 ailəlik yeni qəsəbə üzrə səlahiyyətli nümayəndəsi İbrahim Sadıqovun, qocaman müəllim İqbal İsmayılovun, 99 nömrəli Kəlbəcər tam orta məktəbin direktoru İsmət Nəcəfovun, müəllimlərdən Nazim Ələsgərovun, Əli Şirinovun, Səfər İlyasovun, Gülşən Məmmədovanın, Əhliman Alıyevin, eləcə də kənd ağsaqqallarından - 85 yaşlı Nəsib Nəcəfovun, Məhəmməd Novruzovun, yaşı 90-nı keçən Əli İlyasovun, Səfər Mürsəlovun, Uğurlu Xəlilovun və digər cəmi 56 nəfərin imzaladığı məktub da Azərbaycan Prezidentinin son günlər əhaliyə birbaşa müraciəti ilə bağlıdır. Məktubda qeyd edilir ki, biz məcburi köçkünlər dövlət başçısının nəinki bu gün, ümumiyyətlə, Azərbaycan Prezidenti kimi ilk andiçmə mərasimindən xalqa verdiyi vədə layiqincə əməl etməsinin şahidiyik: "Azərbaycan Prezidenti dövlətimizin iqtisadi, siyasi, humanitar, sosial-mədəni sahələrdə inkişafına məhz Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirməsi ilə nail olub! Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazilərimizin bir hissəsini itirsək də, bütün sahələrdə, xüsusən iqtisadi və hərbi gücümüz Ermənistanı dalana direyib. Sülh danışıqlarını müxtəlif bəhanələrlə pozmağa çalışan Ermənistan 2016-cı il aprel ayının cəmi 2-3 günü ərzində ordumuzun nəyə qadir olduğunu hiss elədi. Bu gün də nəinki ölkəmiz, bütün dünya koronavirus pandemiyası ilə üz-üzə qalıb. Təəssüfedici haldır ki, hələ bu gözəgörünməz bəlanın vaksini, dərmanı tapılmayıb. Buna görə də biz ölkə vətəndaşları, o cümlədən də illərdir ki, dövlətin humanitar yardımları ilə dolanan məcburi köçkünlər qəbul edilən qərarlara, qoyulan qadağalara tam və ciddiyyəti ilə əməl edirik. Qəsəbəmizdə dezinfeksiya işləri davamlı şəkildə görülür, həmçinin təbliğat və təşviqat el-oba qaydası ilə aparılır. "Evdə qal-sağlam qal" bizim üçün düşünülmüş bir kampaniyadır. Biz dövlətimizin və onun başçısının yürütdüyü siyasətlə bu bəladan xilas olacaq və həyatımıza davam edəcəyik".

### Mehriban xanım Əliyevanın xalqa müraciəti bizi kövrəldib!

1986-cı ildə Kəlbəcərdə dünyaya göz açan Samirə İbrahimova 1993-cü ilin qanlı aprel günlərində ailəsi ilə birlikdə doğma yurdundan didərgin düşənlərdən biridir. Kəlbəcər rayonunun Bakı şəhərində fəaliyyət göstərən 21 saylı tam orta məktəbində çalışan, burada bədii tərtibat işləri ilə məşğul olan S.İbrahimovanın Azərbaycan Prezidentinə ünvanladığı məktub digərlərindən bir qədər fərqlənir - üslub və faktlarına, fikir və mülahizələrinə görə. Müəllif yazır: "...Hörmətli Prezidentimiz! Sizin qayğınızı hər vaxt hiss etmişik. Gecə-gündüz yorulmadan çalışırsınız. Ailəmiz 5 nəfərdən ibarətdir. Yoldaşımla mən əlillik dərəcəsi ilə sosial yardım alanlardanıq. Qızım Fatimə ilə oğlum İbrahim 117 nömrəli Kəlbəcər tam orta məktəbinin şagirdidir. Hər ikisi də koronavirus pandemiyasının qarşısının alınması üçün "Evdə qal-dərsdən qalma" kampaniyasına qoşulub. Beş yaşlı Polad da özünə iş tapır: maraqlı köhnə oyuncaqlarından yeni nəsə düzəldir. Mahnı oxuya-oxuya əllərini tez-tez yuyub, videorolik çəkərək internetdə paylaşmağımızı xahiş edir. Deyir ki, hamımız sağlam olmalıyıq. Onu da bilirik ki, evdə qalmaq heç də o demək deyil ki, əllərini bir-birinin üstünə qoyub hansısa bəlanın gəlməsini, fəlakəti gözləyəsən! Yox! Biz ailəliklə "evdə qal-işsiz qalma" yaratmışıq. Hər birimizin məşğuliyyətimiz var. Nənələrimizdən bizə miras qalan qadın əl işləri ilə bu gün məşğul olmaq üçün yaxşı fürsətdir. Mən qızım Fatiməyə corab toxuma, biçmə-tikmə, rəsm çəkmə öyrədirəm. Həyat yoldaşım isə İbrahimin dərsləri ilə məşğuldur. Bir sözlə, biz işsiz deyilik. Arzumuz xalqımızın bu bəladan sağ-salamat qurtarmasıdır. Bu yolda Sizin ailəyə də cansağlığı diləyirik. Mehriban xanım Əliyevanın xalqa müraciəti bizi çox kövrəldib! Qəbul olunan qaydalara və qadağalara əməl etmək də bizim borcumuzdur".

### Bugünkü ön cəbhənin sosial müdafiəsi

Laçın rayonundan olan məcburi köçkün Əkbər Nəcəfovun yazdığı məktubdan sətirlər: "Hörmətli cənab Prezident! Respublikamıza Sizin kimi alicənab, uzaqgörən siyasi xadim rəhbərlik edir. Sizin rəhbərliyinizlə son zamanlar ölkəmizdə gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində mühüm addımlar atılır, vətənpərvər, dövlətçiliyə bağlı, yüksək intellektli və geniş dünyagörüşünə malik gənc nəsil formalaşır. Biz gənclər də Sizə güvənir, gördüyünüz işlərin dəyərini çox yaxşı bilir və ürəkdən alqışlayırıq.

Hörmətli cənab Prezident, son vaxtlar dünyada geniş yayılmış COVID-19 pandemiyası əfsus ki, Azərbaycanda da yayılmağa başladı. Ölkəmizdə Sizin diqqətiniz və rəhbərliyinizlə bu bəlanın Avropadakı kimi daha geniş yayılmasının qarşısının alınması məqsədilə dövlət tərəfindən atılan sistemli addımlar göz önündədir. Biz bu çətinliyin öhdəsindən birgə gələcəyimizə inanırıq. Vətəndaşların sağlamlığını düşünərək qabaqlayıcı tədbirlərin görülməsi, vəziyyətə uyğun lazımi addımların atılması, insanların sosial müdafiəsinin bütövlükdə təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə Laçın gəncləri adından Sizə təşəkkür edir, məsuliyyətli və şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq".

Azərbaycan xalqı yaxşı görür ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı genişmiqyaslı tədbirlər aparılır, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət həyata keçirilir.

Dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir əksini tapıb. 17 aprel tarixində Azərbaycan Prezidenti tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə dövlət büdcəsindən 600 milyon manat vəsait ayrılıb.

Dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün məqsədyönlü tədbirlər görülüb. Elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. Əmək müqaviləsi sayında azalma deyil, artım baş verib.

Bütün bunlar insanları razı salır, onlar xeyirxah və əməli fəaliyyətlərinə görə dövlət başçısına təşəkkürlərini bildirirlər.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Müdrik lideri olan xalq xoşbəxtdir

## Azərbaycan Prezidenti daim ölkənin hər bir vətəndaşının yanındadır

Dünyada gedən tarixi proseslər bir daha göstərir ki, müdrik lideri olan xalq xoşbəxtdir. Biz bu müdrikliyi Azərbaycanın müstəqilliyə qovuşduğu ilk illərdən Ulu Öndər Heydər Əliyevin timsalında görmüşük. Ümummilli Lider xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdarkən "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyərək necə mübarizə meydanına atıldısa, ölkəni vətəndaş müharibəsi astanasından, dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək necə demokratik və hüquqi bir dövlət qurdusa, Azərbaycan Prezidenti İlham Əliyev də 2003-cü ildə hələ vəzifəsinin icrasına başlamamış bədniyyətlilərdən müstəqilliyimizi qorumaq naminə özünü sipər etdi: Azərbaycanı böyük təhlükələrdən qorudu.

Son 17 ildə Azərbaycan gündən-günə inkişaf etmiş, iqtisadiyyatımızın yüksəlməsi, əhalinin həyat tərzinin yaxşılaşması, şəhər və rayonlarımızın abadlaşması, təhsilimizin inkişafı, Avropaya inteqrasiya prosesinin yüksəlməsi, ölkəmizin dünya dövlətləri arasında nüfuzunun artması bilavasitə cənab Prezidentin adı ilə bağlıdır.

Bütün bunlar Azərbaycan xalqı, onun ziyalıları tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Ulu Öndər Heydər Əliyevin siyasəti bu gün dövlət başçısının timsalında uğurla davam etdirilir. Ölkəmizdə yeni islahatlar aparılır. Ümummilli Lider tərəfindən əsası qoyulan gənclər siyasəti davam etdirilir. Yüksək intellektli, vətənpərvərlik hissinə, milli düşüncəyə malik olan gənclər ölkənin ictimai-siyasi həyatında əsas rol oynayırlar.

Dünyanı bürüyən koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Prezidentinin həyata keçirdiyi düşünülmüş tədbirlər, xalqımızın sağlamlığının qorunması üçün gördüyü işlər ziyalılar tərəfindən də yüksək dəyərləndirilir. Dövlət başçısının təşəbbüsü ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, ilk olaraq özünün birillik əməkhaqqını ora köçürməsi, virusun geniş yayılmaması üçün xalqa müraciəti, bu çətin günlərdə hamını bir olmağa, özünütəcrid qaydalarına əməl etməyə çağırması vətəndaşlarımızı ürəkləndirdi. Bu da Azərbaycan xalqının qarantı və hər bir vətəndaşın Prezidenti olmasını bir daha sübut etdi.

Dövlət başçısının həmişə olduğu kimi, bu çətin günlərdə də ölkəmiz və xalqımız üçün göstərdiyi fədakarlıq, qəbul etdiyi qərarlar, keçirdiyi videogörüş-konfranslar, açılışını etdiyi obyektlər bir daha xalqın yanında olduğunun təzahürü və təsdiqidir. "Yeni klinika" tibb müəssisəsinin koronavirusa yoluxan xəstələrin müalicəsi üçün istifadəyə verilməsi, açılışındakı səmimi çıxışı, tövsiyələri, tibbi maska istehsalı müəssisəsinin fəaliyyətə başlaması, daha 6 xəstəxananın tikilməsinə göstəriş verməsi dövlət başçısının xalqın yanında olmasını və daim ölkə vətəndaşlarını düşünməsinin göstəricisidir. Bunlarla yanaşı ölkə rəhbəri yalnız Azərbaycanda yox, bütün dünyada yaşayan və səfərlərdə olan soydaşlarımızın da qayğısına qaldığı, onlara ən yüksək səviyyədə dayaq durduğu üçün ziyalılar ona minnətdarlıq edir. Dövlət başçısının ünvanına gələn çoxsaylı təşəkkür məktubları, əhalinin ürək sözləri bir daha bunları təsdiqləyir.

Görülən tədbirlərin həm də beynəlxalq təşkilatlar tərəfindən yüksək səviyyədə dəyərləndirilməsi və təqdir edilməsi hamımızı məmnun edir. Azərbaycan Prezidentinin ünvanına gələn, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun təşəkkür məktubu söylədiklərimizi əsaslandıran faktlardandır.

Pandemiyanın geniş yayılmasının qarşısını almaq haqqında Azərbaycan Prezidentinin verdiyi tapşırıqlar məsuliyyətlə yerinə yetirilir. Bütün vətəndaşlara, xüsusilə yaşlılara, köməyə ehtiyacı olanlara diqqət və qayğı göstərilir. Xalqımızın genefondunu təşkil edən gənclərin, tələbələrin və orta məktəb şagirdlərinin qayğısına qalaraq tədris prosesinin dayandırılması, işləməyən ailələrə maddi yardım göstərilməsi bu qayğının bariz nümunəsidir.

Çalışdığım Azərbaycan Texniki Universitetinin professor-müəllim heyəti və çoxminli tələbə kollektivi inanır ki, bu uzaqgörənlik və müdrik rəhbərliklə dövlətimiz və xalqımız tezliklə bu xəstəlikdən ən az itki ilə xilas olacaq.

***Şikar QASIMOV, Azərbaycan Texniki Universitetinin professoru***

# Milli Məclisdə qanvermə aksiyası keçirilib

Parlamentin aprelin 17-də keçirilən iclasında Milli Məclisin Sədri Sahibə Qafarova bildirmişdir ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xeyirxah təşəbbüsü ilə keçirilən qanvermə aksiyasına Milli Məclis də qoşulub.



Sədr demişdir: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xeyirxah bir kampaniya başlanmışdır. Xəstə insanlara kömək üçün qanvermə aksiyaları keçirilir. Mən belə düşünürəm ki, Milli Məclis də bu təşəbbüsə qoşulmalıdır. Biz bunun üçün Milli Məclisdə xüsusi yer ayırmışıq və həkim briqadası dəvət etmişik. Aprelin 18-də Milli Məclisin binasında saat 12.00-dan etibarən Milli Məclisin deputatları, Aparatın və İşlər İdarəsinin əməkdaşları könüllü qan verə bilərlər".

AZƏRTAC xəbər verir ki, irsi və qan xəstəliyi olan insanlara kömək etmək məqsədilə aprelin 18-də Milli Məclisin Sədri Sahibə Qafarova başda olmaqla deputatlar və Aparatın əməkdaşları, İşlər İdarəsinin işçiləri parlamentdə bu məqsədlə ayrılmış yerdə qan veriblər. Dəvət olunmuş həkim briqadası bu xeyirxah kampaniyaya qoşulanları lazımi müayinədən keçirdikdən sonra qanvermə aksiyası həyata keçirilib.

Aksiyada iştirak edən KİV nümayəndələri də prosesi işıqlandırmaqla yanaşı, Milli Məclis Sədrinin çağırışına qoşularaq parlament işçiləri ilə birgə qan veriblər.





# Beynəlxalq ictimaiyyət Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma «seçkilər»i rədd edib

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov "The London Post" qəzetinə müsahibə verib. AZƏRTAC xəbər verir ki, nazir müsahibəsində Ermənistanın Dağlıq Qarabağdakı qanunsuz fəaliyyətini pisləməyin kifayət olmadığını, bu bəyanatlara uyğun hərəkət etmək lazım olduğunu vurğulayıb.

Nazir deyib ki, Ermənistan tərəfindən davam edən hərbi işğal və Azərbaycan ərazilərinin etnik təmizlənməsi fonunda Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "seçkilər"in keçirilməsi Azərbaycan Konstitusiyasının, o cümlədən BMT Nizamnaməsi və 1975-ci il Helsinki Yekun Aktı, eləcə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin açıq şəkildə pozulmasıdır və buna görə də həmin "seçkilər" heç bir hüquqi qüvvəyə malik olmayacaq.

E.Məmmədyarov xatırladıb ki, Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində keçirdiyi "seçkilər"lə bağlı bəyanat verib və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində seçkilərin yalnız Azərbaycanın Konstitusiyası çərçivəsində və bölgənin bütün əhalisinin tam iştirakı ilə keçirilə biləcəyini bildirib.

Belə seçkilər isə yalnız erməni işğalçı qüvvələrinin geri çəkilməsindən, qovulan azərbaycanlı əhalinin öz doğma yerlərinə qayıtmasından və bölgənin erməni və azərbaycanlı icmaları arasında dialoq, eləcə də əməkdaşlığın bərpasından sonra mümkün olacaq.

Nazir vurğulayıb ki, əvvəllər olduğu kimi, bu dəfə də beynəlxalq ictimaiyyət Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"i qəti şəkildə rədd edib və bu "seçkilər"in qeyri-legitimliyini elan edib. Bu sırada Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, NATO, Türk Şurası, GUAM, TÜRKPA və digər beynəlxalq təşkilatların, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrlərinin və çoxsaylı dövlətlərin verdikləri ayrı-ayrı bəyanatları qeyd etməliyik. Əlbəttə ki, bu qanunsuz hərəkətləri pisləmək kifayət deyil, bu bəyanatlara uyğun hərəkət etmək lazımdır. Yəni beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin icrası vacibdir. Azərbaycanın səyləri bunun üçündür və bu, regionda davamlı sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün lazımdır.

E.Məmmədyarov Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə, habelə beynəlxalq ictimaiyyətin birmənalı mövqeyinə əsaslanaraq, 20 ildən çoxdur sülh danışıqlarında iştirak etdiyini diqqətə çatdırıb. Bildirib ki, əldə etmək istədiyimiz regionumuzda əmin-amanlıq və firavanlıqdır. Çoxdan gözlənilən sülhü təmin etmək isə yalnız münaqişənin nəticələrinin aradan qaldırılmasından, erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarılmasından və köçkün Azərbaycan əhalisinin öz evlərinə qayıtmasından sonra mümkündür. Ümumiyyətlə, Azərbaycanın Konstitusiyasına və ölkənin müvafiq qanunvericiliyinə əsasən, seçkilərin nəticələrini Konstitusiya Məhkəməsi təsdiq edir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qondarma "seçkilər"in keçirilməsi ilə ölkə Konstitusiyasının və qanunlarının pozulması o qədər aşkardır ki, Konstitusiya Məhkəməsi bu "seçkilər"i heç nəzərə almadı. Azərbaycanın beynəlxalq münasibətlərin aparıcı iştirakçılarından gözləntisi BMT Təhlükəsizlik Şurasının tələblərinin icrası ilə bağlıdır.

Nazir qeyd edib ki, bu gün Azərbaycanın işğal olunmuş ərazilərində demoqrafik, mədəni və fiziki xüsusiyyətləri dəyişdirmək məqsədilə məqsədyönlü fəaliyyət aparılır. Bu cür hərəkətlər, o cümlədən qondarma "seçkilər" beynəlxalq hüquq normalarının və müvafiq beynəlxalq konvensiyaların açıq şəkildə pozulması deməkdir. Aydındır ki, bu cür siyasət və təcrübələr heç bir halda münaqişənin sülh yolu ilə həllinə nail olmaq məqsədləri ilə uzlaşmır və geniş beynəlxalq ictimaiyyətin BMT Nizamnaməsində təsbit edilmiş qaydalara əsaslanan dövlətlərarası münasibətlərin norma və prinsiplərinə uyğun olaraq təxirəsalınmaz tədbirlər görməsini tələb edir.

# Operativ Qərargah: "Ölkə ərazisində xüsusi karantin rejimi mayın 4-dək uzadıldı"

Əvvəli 1-ci səh.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq 2020-ci il 14 mart tarixdən sosial izolyasiya qaydaları tətbiq olunub, 2020-ci il 20 aprel tarixədək isə xüsusi karantin rejimi elan edilib.

COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsalı laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirilib, ölkə ərazisində 18 laboratoriyanın fəaliyyəti təmin edilib, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb. Respublika ərazisində bir çox 4 və 5 ulduzlu mehmanxanalar, sanatoriyalar və digər infrastruktur obyektləri karantin məqsədilə ayrılıb.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 10 modul tipli yeni xəstəxananın tikintisinə başlanılıb, eləcə də mart ayının sonunda istifadəyə verilmiş "Yeni klinika" müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb. Eyni zamanda, virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanılıb.

Xüsusi rejimli xəstəxanalar müvafiq dərman və qoruyucu vasitələrlə təmin olunub, hər bir karantin zonalarına tibb müəssisələrinin rəhbərləri, həkim və orta tibb heyəti ezam edilib, burada müalicə-profilaktika işləri həyata keçirilib, virusla mübarizədə digər dövlətlərdəki həkim-ekspertlərlə təcrübə mübadiləsi aparılıb. Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlarla COVID-19 virusu ilə mübarizə çərçivəsində sıx əməkdaşlıq qurulub. Ümumdünya Səhiyyə Təşkilatının Bakı ofisi və Heydər Əliyev Fondunun dəstəyi ilə 20 nəfər mütəxəssis Türkiyədə təlim keçərək ölkədəki xüsusi rejimli xəstəxanalarda fəaliyyətə başlayıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli Sərəncamı ilə COVID-19 infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilib.

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20 milyon manat vəsait ayrılıb. Əhali və ayrı-ayrı təşkilatlar bu təşəbbüs ətrafında səfərbər olaraq həmrəylik nümayiş etdirib və koronavirusla mübarizə istiqamətindəki işlərə öz vətəndaş töhfəsini verib. Ölkəmiz üçün bu həssas məqamdakı birlik sayəsində Koronavirusla Mübarizəyə Dəstək Fonduna qısa müddət ərzində ianələr hesabına 112 milyon manatdan çox vəsait toplanıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamına əsasən, COVID-19 pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 3 milyard manatı ötən sosial-iqtisadi dəstək paketi qəbul olunub.

Koronavirus pandemiyasına qarşı mübarizə sahəsində elan edilmiş xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmət göstərilməsi və müvafiq yardım edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Yük daşımaları istisna olunmaqla dövlət sərhədləri müvəqqəti bağlanıb, Azərbaycan tərəfindən ayrılmış çarter reysləri ilə ölkəyə gətirilən vətəndaşlarımız karantin zonalarında yerləşdirilib, xaricdən xəstəliyin idxalının qarşısı alınıb.

Həyata keçirilən tədbirlər nəticəsində ölkədə pandemiya vəziyyəti nəzarət altına alınıb, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olunub.

Azərbaycanda COVID-19 virusuna ilk yoluxma faktının qeydə alındığı 2020-ci il 28 fevral tarixdən bu günədək 1373 nəfər bu xəstəliyə tutulub, 590 nəfər müalicə olunaraq sağalıb, 18 nəfər vəfat edib. Hazırda 765 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir, 3000-dək şəxs karantin zonalarında müşahidə altındadır. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 86 min 607 test aparılıb.

Ölkə üzrə xüsusi rejimli xəstəxanalarda olan xəstələrin səhhəti, karantinə yerləşdirilən şəxslərdən götürülmüş test nümunələri, eləcə də karantin rejimi müddətində paytaxt və regionlarda xəstəlik fonundakı sanitar-epidemioloji vəziyyət təhlil edilib, insanların həyat və sağlamlıqlarının daha səmərəli qorunması, virusun yayılması sürətinin kəskin azaldılması məqsədilə Azərbaycan ərazisində tətbiq olunan karantin rejiminin uzadılması məqsədəuyğun sayılıb.

Bu baxımdan xüsusi karantin rejiminin 2020-ci il 20 aprel saat 00:00-dan 2020-ci il 4 may saat 00:00-dək uzadılmasına qərar verilib. Bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 saylı qərarında qeyd olunan bütün tədbirlər, o cümlədən yük daşımaları istisna olunmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışa, yerli hava uçuşlarına tətbiq olunan məhdudiyyətlər, eləcə də bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması 2020-ci il 4 may saat 00:00-dək uzadılır. Bununla belə, uzadılmış karantin rejimindən mərhələli çıxış planı hazırlanaraq, növbəti həftə ərzində ictimaiyyətə təqdim olunacaq. Eyni zamanda, ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək uzadılmış karantin rejimi dövründə ayrı-ayrı sahələrdə tətbiq olunan məhdudiyyətlərin yumşaldılması da istisna edilmir.

COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə əlaqədar ölkədəki ümumi vəziyyət təhlil edilərək zərurət olduqda karantin rejiminin yenidən sərtləşdirilməsi də mümkündür.

COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

COVID-19 pandemiyası zəminində dünyada yaşanan hazırkı fövqəladə vəziyyətdə və dövlətimiz üçün həssas vaxtda ölkə əhalisinə xüsusi karantin rejimi müddətində göstərdikləri əzm və vətəndaş məsuliyyətinə görə bir daha təşəkkür edir, qarşıdakı müddətdə virusun geniş yayılmaması, insanlar arasında daha təhlükəli fəsadlar yaratmaması üçün hər bir şəxsi karantin rejimi qaydalarına və Operativ Qərargahın tələblərinə əməl etməyə çağırırıq. Müvafiq dövlət qurumlarına, o cümlədən COVID-19 ilə mübarizə aparan səhiyyə işçilərinə göstərdikləri yüksək peşəkarlığa görə təşəkkür edirik.

# Avropa Xarici Əlaqələr Şurasının saytında Azərbaycan-İtaliya münasibətlərinin inkişafından bəhs edən məqalə dərc olunub

Nüfuzlu beyin mərkəzlərindən olan Avropa Xarici Əlaqələr Şurasının (ECFR) internet səhifəsində İtaliya Beynəlxalq Siyasi Araşdırmalar İnstitutunda (ISPI) və Venesiya Ka Foskari Universitetində postsovet məkanı üzrə tədqiqatçı Karlo Frappinin "Müttəfiqliyə yaxın əlaqələr: İtaliyanın Azərbaycana və Dağlıq Qarabağ münaqişəsinə yeni yanaşması" adlı məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 19-22-də İtaliya Respublikasına dövlət səfərinin iki ölkə arasındakı münasibətlərin yeni keyfiyyət müstəvisinə qədəm qoyması, İtaliyanın Azərbaycanla münasibətlərə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair yeni baxışları və Qərbdə Azərbaycanın əsas tərəfdaşına çevrilməsi kimi məqamlar təhlil olunur.

Məqalədə Prezident İlham Əliyevin dövlət səfərinin Azərbaycan və İtaliya arasında münasibətlərin yeni keyfiyyət müstəvisinə qədəm qoymasını təmin etdiyi bildirilir, bu səfər Rəsmi Romanın münasibətlərin dərinləşdirilməsi üçün çox yüksək gözləntilərin olduğu yaxınlaşma prosesinin nəticəsi olaraq dəqiq bir siyasi seçim kimi xarakterizə edilir.

İtaliya və Azərbaycan arasında imzalanmış sənədlərin iqtisadi cəhətdən əhəmiyyətinin danılmaz olduğunu qeyd edən müəllif iki ölkə arasındakı cari razılaşmaların iqtisadi cəhətdən mühüm olsa da, onların siyasi ölçüsünün xüsusilə Dağlıq Qarabağ münaqişəsinə münasibətdə daha da əhəmiyyətli olduğunu vurğulayır.

Tədqiqatçı imzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin müstəsna əhəmiyyət daşıdığını bildirir. Vurğulayır ki, Birgə Bəyannamə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın iddialarını ənənəvi olaraq əsaslandırdığı beynəlxalq hüququn dayaqları olan suverenlik, ərazi bütövlüyü və milli sərhədlərin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həllinə tərəflərin dəstəyini təsdiq edir. Bu, Helsinki Yekun Aktının təməl prinsiplərinə istinad edilməklə bəyannamənin siyasi əhatəsinə təsir etmədən, İtaliyanın Azərbaycan və Ermənistan arasındakı münasibətlərə yürütdüyü ekvidstansiya (bərabər məsafəlilik) siyasətindən əhəmiyyətli dərəcədə uzaqlaşmasını göstərir.

Sonda müəllif Qərbin Şərqi Avropadakı uzanan münaqişələrə münasibətdə ikili standartların tətbiq edilməsi ilə bağlı Azərbaycanın narahatlığına cavab olaraq Romanın açıq bir mövqe sərgilədiyini və sözügedən Birgə Bəyannamənin əslində müharibə edən tərəflər arasında otuz ilə yaxın danışıqlara vasitəçilik edən, özünün də üzvü olduğu ATƏT-in Minsk qrupuna açıq şəkildə istinad etmədiyi Dağlıq Qarabağla bağlı ilk açıqlaması olduğunu vurğulayır.

# Mariya ZAXAROVA: "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlər davam edir"

Koronavirusa baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlər davam edir. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada brifinqdə Rusiya və Azərbaycanın Xarici İşlər nazirlikləri başçılarının son iki telefon danışıqlarının mövzusu barədə suala cavabında bəyan edib.

"Həqiqətən, koronavirusa baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlər davam edir. Sualda Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Azərbaycanın Xarici İşlər naziri cənab Məmmədyarovla telefon danışıqları xatırlandı. Belə ki, daha əvvəl, aprelin 8-də Lavrovla onun erməni həmkarı cənab Mnatsakanyan arasında telefon danışığı olub. O cümlədən nizamlanma ilə bağlı məsələlər də nəzərdən keçirilib. ATƏT-in Minsk qrupunun həmsədrləri (Rusiya, Fransa və ABŞ), həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Kaspşik tərəflər ilə müntəzəm əlaqə saxlayırlar. Davam edən məsləhətləşmələr seriyasında koronavirus infeksiyası mövzusu, onun danışıqlar prosesinə təsiri, həmçinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının bəzi məsələləri diqqət mərkəzindədir. Sərhəddə, təmas xəttində vəziyyət müzakirə olunub. Həmsədrlərin ortaq fəaliyyəti barədə məlumatı onların 19 mart tarixli birgə bəyanatından almaq olar. Bəyanat ATƏT-in saytında yerləşdirilib", - deyə M.Zaxarova bəyan edib.

RF XİN rəsmisi həmçinin Rusiya və Azərbaycanın koronavirus infeksiyasına qarşı mübarizədə əməkdaşlığını şərh edərək deyib: "Yeni koronavirus infeksiyasına qarşı mübarizədə və onun sosial-iqtisadi fəsadlarının aradan qaldırılması sahəsində ölkələrimizin səylərinin əlaqələndirilməsi məsələləri hazırda hər iki tərəfin gündəliyində duran mühüm mövzudur. Rusiya və Azərbaycan arasında bu sahədə sıx qarşılıqlı əməkdaşlıq əlaqələri qurulub. Mövzu bir neçə dəfə iki ölkənin hökumət başçıları - cənab Mişustin və cənab Əsədov, Xarici İşlər nazirləri - müvafiq olaraq, cənab Lavrov və cənab Məmmədyarov tərəfindən müzakirə edilib. Rusiya və Azərbaycanın sahəvi qurumları da əlaqə saxlayırlar. Virusun laboratoriya şəraitində diaqnostikası məqsədilə cari ilin mart ayının əvvəllərindən Rusiya tərəfindən Azərbaycana 12 min tədqiqat üçün 120 dəst test sistemi verilib. Biz bundan sonra da tərəfdaşlarımıza lazımi köməklik göstərməyə hazırıq. Moskva və Bakı ölkələrimizin vətəndaşlarının öz vətənlərinə qayıtmaları məsələsində sıx əməkdaşlıq edirlər. Biz bu məsələdə göstərilən köməyə görə Azərbaycan tərəfinə minnətdarıq. Bu, birgə səylərdir, bir sözlə, işləyirik".

# Xarici İşlər Nazirliyində "Evə gedirəm" qeydiyyat portalının təqdimatı olub

Aprelin 18-də Xarici İşlər Nazirliyində Rusiyada yaşayan vətəndaşlarımızın ölkəyə qayıdışı üzrə yaradılan "Evə gedirəm" adlı qeydiyyat portalının təqdimatı keçirilib. Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Xarici İşlər nazirinin müavini Ramiz Həsənovun rəhbərliyi ilə keçirilən görüşdə aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Görüş zamanı yeni portalın fəaliyyəti və qeydiyyat prosesi haqqında ətraflı məlumat verilib, eləcə də prosesin müvafiq dövlət qurumları tərəfindən vahid mərkəzdən idarə edilməsi, vətəndaşlarla onlayn əks əlaqənin qurulması məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, "Evə gedirəm" portalı vasitəsilə www.evegedirem.info internet səhifəsində xaricdə yaşayan həmvətənlərimiz onlayn qeydiyyata düşmək imkanı əldə edəcək, beləliklə də vətəndaşlarımızın Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və konsulluqlarına müraciətləri tezləşəcək və onların Vətənə qayıdış prosedurlarına kömək göstəriləcək.

Saytda ilkin mərhələdə yalnız Rusiya Federasiyasında olan Azərbaycan Respublikası vətəndaşları qeydiyyatdan keçə biləcəklər.

Saytda qeydiyyatdan keçmiş hər bir şəxsin elektron növbə ardıcıllığı yaranacaq və həmin ardıcıllığa uyğun olaraq vətəndaşlarımızın Azərbaycana qayıtma tarixləri təyin ediləcək, eləcə də vətəndaşların sərhəd-keçid məntəqələrindən müəyyən olunan sayda buraxılışının təmin olunması istiqamətində işlər tənzimlənəcək.

Azərbaycana qayıdış vətəndaşın istəyi nəzərə alınaraq hava və quru nəqliyyatı vasitəsilə təmin olunacaq. Azərbaycana hava yolu ilə geri dönüş istəyi olan şəxslərin AZAL və "Buta Airways"lə əvvəlcədən alınmış qayıdış bileti olarsa, həmin şəxslərin geri dönüşü ödənişsiz həyata keçiriləcəkdir. Digər şəxslər üçün isə çarter uçuşları ödənişlidir.

Müraciət edən şəxsin geri dönüş üçün müəyyən olunan tarix və keçid məntəqələri barədə məlumat portal vasitəsilə, mobil telefona SMS göndərilməklə və ya birbaşa zənglə əlaqə saxlanılaraq bildiriləcək.

Vətəndaşların Azərbaycana qayıdış tarixləri karantin rejiminin şərtlərinə uyğun tənzimlənəcək və ölkəyə qayıdan hər bir şəxs karantində yerləşdiriləcək.

18 aprel 2020-ci il Moskva vaxtı ilə saat 10:00-dan etibarən fəaliyyətə başlayan portalda qeydiyyat 23 aprel 2020-ci il saat 00:00-dək davam edəcək.

Xatırladırıq ki, portalda yalnız xaricdə olan Azərbaycan vətəndaşları qeydiyyatdan keçə bilərlər.

# Azərbaycanda koronavirusa 33 yoluxma faktı qeydə alınıb, 62 nəfər sağalaraq evə buraxılıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 33 yoluxma faktı qeydə alınıb, 62 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1373 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 590 nəfər müalicə olunaraq sağalıb, 18 nəfər vəfat edib, 765 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 21 nəfərin vəziyyəti ağır, 30 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

## Biz birlikdə güclüyük!

# Xalq-iqtidar birliyi sarsılmazdır

## Koronavirusla mübarizə tədbirləri həm də Azərbaycan cəmiyyətinin öz Prezidenti ətrafında sıx birləşdiyini nümayiş etdirdi

Azərbaycan koronavirus təhlükəsinin öhdəsindən layiqincə gəlməkdədir. Həyata keçirilən qabaqlayıcı tədbirlər və tətbiq olunan karantin rejimi müsbət nəticələrini göstərməkdədir. Eyni zamanda problemin iqtisadiyyata və vətəndaşların rifahına təsir etməməsi ilə bağlı atılan addımlar ictimaiyyətin dərin razılığı ilə qarşılanır.
Milli Məclisin deputatları bununla bağlı qənaətlərini qəzetimizlə bölüşdülər.





### İlham Əliyev alternativi olmayan liderdir

**İlham MƏMMƏDOV,**
*Milli Məclisin deputatı*

- Ötən əsrin 60-cı illərində Azərbaycanda həyatın bütün sahələrində hökm sürən durğunluq, geriləmə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra inkişafla əvəzləndi. Azərbaycan çox qısa vaxt ərzində ittifaq respublikaları arasında öncüllər sırasında yer aldı. Müstəqilliyimizin itirilmə təhlükəsi ilə üz-üzə qaldığı, Azərbaycanda müharibələrin ən amansızının - vətəndaş müharibəsinin baş verməsinin an məsələsi olduğu 90-cı illərdə xalq üzünü xilaskarı kimi öz liderinə tutdu, ondan kömək istədi, taleyini ona etibar etdi. Ümummilli Lider bu dəfə də ölkəsinin və xalqının taleyinə biganə qalmadı. O, hakimiyyət sükanı arxasında şərəflə durdu, söylədiyi kimi, ömrünün qalan hissəsini xalqına bəxş etdi, Azərbaycanı dünyaya tanıtdı, müstəqilliyimizin əbədiliyinin və dönməzliyinin möhkəm təməllərini yaratdı, bütün sahələrdə dinamik inkişafın əsaslarını qoydu.

Böyük azərbaycanlı kimi Heydər Əliyevin qüdrəti onun Vətəninə və xalqına olan böyük sevgisindən, zəkasından və müdrikliyindən güc alan, dövlətimizin və xalqımızın daha parlaq gələcəyinə yönəlik siyasi kursunda idi. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev bu gün o kursu davam etdirir. Azərbaycan vaxtında Heydər Əliyevlə bütün anlamlarda güclü idi, indi isə Azərbaycan İlham Əliyevlə bütün anlamlarda güclüdür. Bu gücün mənbəyi isə qeyd-şərtsiz xalqdır. Ölkəmizin şöhrəti dünyaya səs salıb, dünya Azərbaycan nümunəsində yeni bir inkişaf modelinə böyük maraq göstərir.

Bir neçə aydır ki, koronavirus dünyanın nizamını dəyişib. Özü ilə ən böyük və inkişaf etmiş dövlətlərin həyatına belə bir süstlük gətirib, insanları həyəcan dolu təşvişlə yaşamağa məruz qoyub. Amma Amerika kimi süperdövlət də daxil digər ölkələrdə koronavirusla bağlı müxtəlif sosial şəbəkələrdən əldə etdiyimiz informasiyalardakı qandonduran məlumatlar, izlədiyimiz videogörüntülərdəki qorxu, vahimə yaradan mənzərələr bizdə baş verməyib. Nədən? Çünki virusun Çindən yayılma təhlükəsi gündəmə gəldiyi ilk vaxtlardan Azərbaycanda önləyici tədbirlər görüldü, vəziyyət ən yüksək səviyyədə nəzarətə götürüldü. Təhlükəli virusa qarşı mübarizə işində də Azərbaycan dünyaya nümunə olmağı bacardı.

Pandemiyanın insanlarda pessimist əhvali-ruhiyyəyə, ruh düşkünlüyünə səbəb olduğu bir vaxtda dövlət başçısı sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri kimi təqdirəlayiq təşəbbüslə çıxış etdi. Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə toplantısı keçirildi. Toplantı koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr edilmişdi. Ümumdünya Səhiyyə Təşkilatının direktorunun da iştirak etdiyi bu toplantı insanlara pandemiyanın təhlükəli, amma yenilməz olmadığı mesajını verdi.

Karantinin hökm sürdüyü günlərdə dövlət başçısı öz xalqının qarşısına yenə də bir sərkərdə, Ali Baş Komandan kimi çıxdı. Dövlət başçısının sədrliyi ilə keçirilən videomüşavirə və həmin müşavirədə cənab Prezidentin cari ilin birinci rübünün yekunları, qarşıda duran vəzifələrlə bağlı proqram xarakterli çıxışı koronavirusdan sonrakı Azərbaycan üçün nikbin proqnozlarla zəngin idi. Dövlət başçısı çıxışının əvvəlində rüb ərzində mövcud vəziyyətin mənzərəsini çox aydın şəkildə diqqətə çatdırdı: "Deyə bilərəm ki, 2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi. Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər".

Azərbaycan adlı karvanın öz yolunda olduğu, bütün maneələri dəf etmək qətiyyəti gün kimi aydındır. Amma bu yolda süni maneələrlə hərəkəti əngəlləmək meyilləri hər zaman olduğu kimi yenə də var. İqtidar xalq, dövlət naminə əməkdaşlıq üçün özünü müxalifət adlandıran kəsimə əl uzatdı. Amma hər zaman su bulandırmaqda maraqlı olan bəzi qruplar müxtəlif bəhanələrlə yan qaçdılar. Nə oldu, cənablar? İşinizə yaramadı? "Siyasi islahat" deyib şivən qoparmaq hara, bu islahatın reallaşmasına hazırkı təpkiniz hara?

Populist çıxışlarında xalqa "can yandıran" sapı özümüzdən baltalar yenə də öz ampluasındadırlar. Ölkə rəhbəri müşavirədəki çıxışında da belələrinə layiq olduğu qiyməti verdi: "Bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır".

Bu gün müxtəlif yollarla Avropaya gedən, savadsız, əqidəsiz, millət taleyi düşünməyən "müxalif"lər internetin imkanlarından dövləti nüfuzdan salmaq, inkişafı ilə dünyaya səs salmış gənc müstəqil Azərbaycanımızda həyatın ritmini pozmaq üçün sanki yarışa giriblər. Çıxışları uydurma faktlarla süslənmiş bu "fədailər" söyüş ritorikası ilə hakimiyyət xülyasındadırlar və sərsəmlədiklərinin fərqində deyillər. İddiaları da çox gülüncdür adına "beşinci kalon" deyilən "vətənsevər"lərin. Nə imiş? Ölkədə xalq-hakimiyyət böhranı yaşanırmış. Burada yadıma parlament seçkiləri ərəfəsi düşdü. Seçicilərin iqtidar partiyası namizədlərinə göstərdiyi diqqət, sayğı, məhəbbət sözlə çətin ifadə olunası qürurverici mənzərə idi. Amma bunu həmin namizədlərdən biri olaraq səsləndirməyimin opponentlərimizdə hansı reaksiyanı doğuracağını bildiyimdən tamam başqa bir nümunədə onları əsl həqiqətə vicdanla yanaşmağa dəvət edirəm.

Seçkilərdə müstəqil şəkildə iştirak edən, heç bir partiyanın üzvü olmayan deputatlığa namizəd təşviqat kampaniyası zamanı görüşlərinin birinin təəssüratlarını elə bu cür də ifadə etmişdi: "Tam səmimi deyirəm. İnsanlar arasında Prezident İlham Əliyevə, Mehriban xanıma böyük inam, sevgi və rəğbət var. Hansı qapıya gedirdim, mən namizədəm deyən kimi, məsələn, bir qadın qab-qaşıq yuduğu yerdə əlini göyə qaldırıb İlham Əliyevə dua eləyir, cansağlığı arzulayırdı. Fikirləşirəm ki, bu adam xalqdır. Yaxud kənddə bir dükanın qabağına adamlar yığılır, Prezidenti tərifləyirlər. Deyirlər ki, deputat bizim dərdlərimizi Prezidentə çatdıran adam olmalıdır. Vəssalam. Nə deyim, nə danışım? Xalqdır. And içirəm, hansısa bir dırnaqarası müxalifət lideri o camaatın qabağına çıxıb desə ki, bu iqtidar pisdir, mən sizin prezidentiniz, deputatınız olmaq istəyirəm, adamlar onları kənddən daşla, kəsəklə qovar. Vallah, billah, gördüklərimi yazıram. Bunlar mənim hələ ilkin müşahidəmdir".

Bax belə, əlləri bu xalqın qənimi olan, bu ölkənin inkişafını gözügötürməyən qüvvələrin cibində olan, düşmən süfrəsi kənarında qarın doyuran, vətən, xalq deyil, şəxsi çıxarı üçün hər cür simasızlığı qəbul edən "cənab"lar! Bu xalq sizin kimilərin "qabiliyyəti"ni 90-ların əvvəlində bir dəfə görüb. Qarşınızda müdrik bir xalq var: yanlışlarından dərs almağı bacaran, təkrar səhvə fürsət verməyən Azərbaycan xalqı. Bu xalq öz gələcəyini Heydər Əliyev siyasətinin təntənəsində görür. Bu təntənədə isə əsas rol Ulu Öndərin həyatda və siyasətdə layiqli davamçısı olduğunu illərdir uğurla təsdiq edən alternativsiz lider İlham Əliyevə məxsus olacaqdır.

Azərbaycan hamımızın vətənidir. Ona sevgi bütün sevgilərimizin fövqündə olmalıdır. Məşhur filosofun dediyi kimi, "məhəbbət haqqında bütün təsəvvürlərimiz bir sözdə - Vətən sözündə birləşməlidir". Onda çox güclü olar, Vətən və millət olaraq daha böyük uğurlara imza atarıq.

### Müdrik siyasətin və vətəndaş qayğıkeşliyinin təcəssümü

**İqbal MƏMMƏDOV,**
*Milli Məclisin deputatı*

- Aprelin 14-də Prezident İlham Əliyevin sədrliyi ilə videokonfrans şəklində keçirilən müşavirədə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunları və qarşıda duran vəzifələr müzakirə olundu. Dövlət başçısının proqram xarakterli nitqi göstərdi ki, qlobal koronavirus pandemiyasına baxmayaraq, Azərbaycan öz inkişafını inamla davam etdirir.

Müşavirədə cənab Prezidentin və mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin diqqətə çatdırdıqları statistika respublikamızın inkişaf prioritetlərinin uğurla reallaşmasından xəbər verir. Ən əhəmiyyətlisi isə odur ki, neftin qiymətinin ucuzlaşması Azərbaycanın iqtisadi inkişafı istiqamətində hər hansı kəskin fəsad doğurmur. Bunun bariz təsdiqi cari ilin 3 ayında qeyri-neft sektorunun 3 faizdən artıq, qeyri-neft sənayesinin isə 23 faiz artımıdır. Bu da Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı istiqamətində başlatdığı islahatların uğurlu nəticə verməsinin bariz təsdiqidir. Beləliklə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır".

Məmnunluqla qeyd olunmalıdır ki, birinci rübün göstəricilərinə görə, ölkə iqtisadiyyatının əldə etdiyi nəticələr bütövlükdə müsbətdir. Təbiidir ki, bu dövrdə iqtisadi nailiyyətlərimiz daha da yüksək ola bilərdi. Amma qeyd etdiyim kimi koronavirus infeksiyasının yayılması bütün dünyada iqtisadiyyata təsirsiz ötüşməyib. Azərbaycan iqtisadiyyatı da dünya iqtisadiyyatına bağlı olduğundan xüsusən mart ayında müəyyən təsirlər hiss olundu. Lakin bu məsələ ilk gündən Prezident İlham Əliyevin diqqətindədir. Məlum olduğu kimi, mart ayından başlayaraq koronavirusla mübarizə çərçivəsində kompleks qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanılıb. Vətəndaşların virusa yoluxmalarının qarşısını almaq üçün karantin rejimi tətbiq olunub, hərəkətə məhdudiyyətlər qoyulub.

İqtisadiyyata gəldikdə, pandemiyanın bu sahəyə, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci ilin dövlət büdcəsindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 1 milyard manat ayrılıb.

Yaranmış vəziyyətin vətəndaşların sosial rifahına təsir etməməsi də diqqət mərkəzindədir. İşsiz vətəndaşlara sosial müavinətlərin verilməsi də cənab Prezidentin yüksək diqqət və qayğısının göstəricisidir. Artıq bir neçə gündür ki, bu vəsaitin ödənilməsinə başlanılıb. Ümumilikdə, koronavirus pandemiyası ilə əlaqədar olaraq respublikamızda məşğulluqla bağlı problemlərin həllinə, o cümlədən iqtisadi sabitliyin təmin edilməsinə, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına ən azı 2,5 milyard manat nəzərdə tutulur.

Azərbaycan vətəndaşları ilk gündən koronavirusla mübarizə və bu qlobal problemin sosial-iqtisadi həyatımıza təsirlərinin aradan qaldırılması üçün Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasətin və vətəndaş qayğıkeşliyinin şahidi olmaqdadır. Vəziyyətin ciddi nəzarət altında olması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birillik əməkhaqlarını bu fonda ianə etmələri, pandemiyanın ölkə iqtisadiyyatına təsirinin azaldılması üçün maliyyə vəsaitinin ayrılması və həssas təbəqənin də maddi təminatı ilə bağlı göstərişlərin verilməsi, qısa müddət ərzində yerli tibbi maska istehsalına başlanılması müdrik rəhbərliyin və uğurlu siyasətin ayrı-ayrı göstəriciləridir. Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışı, Mehriban xanım Əliyevanın koronavirus infeksiyası ilə bağlı həmvətənlərimizə müraciəti, sosial şəbəkə hesabından etdiyi paylaşımlar bir daha bunu əks etdirir ki, ən gözəl xüsusiyyətlərlə sabaha, xoş ümidlərlə rifaha doğru addımlayırıq.

Həyata keçirilən qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət həm insanlarımızın sağlamlığını qorumağa, həm də iqtisadiyyatımıza olan mənfi təsirlərin sürətlə aradan qaldırılmasına imkan verəcək.

Bu günlərdə həm də xalq-iqtidar birliyinin sarsılmaz olduğu bir daha öz təsdiqini tapdı. Belə ki, koranavirusla mübarizə tədbirləri Azərbaycan ictimaiyyətinin öz Prezidenti ətrafında sıx birləşməsini növbəti dəfə nümayiş etdirdi. Xalqımız bir daha göstərdi ki, özünü müxalifət adlandıran, əslində isə dövlətimizə qarşı düşmənçilik mövqeyində dayanan, antiazərbaycançı dairələrin dəyirmanına su tökən qruplara aramızda yer yoxdur və heç vaxt da olmayacaq.

### Antimilli bədxahlar dövlətə düşmən kəsildiklərini bir daha nümayiş etdirdilər

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı*

- Bu gün bütün bəşəriyyət koronavirus adlı təhlükə ilə üz-üzə qalıb. Ötən ilin sonunda Çindən başlayıb dünyaya yayılan virus dünyanın bir sıra ölkələrində, xüsusən inkişaf etmiş Qərbdə ciddi fəsadlara yol açıb. ABŞ, İtaliya, İspaniya, Fransa, Böyük Britaniya kimi inkişaf etmiş ölkələrdə infeksiyanın səbəb olduğu faciənin ağrı-acısı yaşanmaqdadır.

Qlobal pandemiyaya çevrilən koronavirus infeksiyası Azərbaycandan da yan ötmədi. Ölümcül virus ölkəmizi də sınağa çəkməkdədir. Fevralın sonlarından Azərbaycanda müşahidə olunan COVID-19 təəssüf ki, sonrakı müddətdə vətəndaşlarımız arasında yoluxmaya səbəb oldu. Lakin dövlətimizin vaxtında həyata keçirdiyi təxirəsalınmaz qabaqlayıcı tədbirlərin və karantin rejiminin tətbiq olunması nəticəsində koronavirus Avropada olduğu kimi, Azərbaycanda da ciddi fəsadlara yol aça bilmədi. Artıq gündən-günə respublikamızda virusla mübarizə sahəsində əldə edilən müsbət nəticələri görməkdəyik. Koronavirusa yoluxmuş şəxslərin üstünlük təşkil etməməsi də həyata keçirilən tədbirlərin səmərəli olmasından xəbər verir.

Bəli, ölkə ictimaiyyəti bu çətin günlərdə bir daha yanında öz liderini, onun qayğısını və dəstəyini gördü. Hər zaman olduğu kimi, Prezident İlham Əliyev xalqımızın və dövlətimizin bu qlobal təhlükədən alnıaçıq çıxması və insanların çətinlik çəkməməsi üçün nə lazımdırsa edir. Ona görə də Prezident İlham Əliyevə təşəkkür məktubları ünvanlayan sadə vətəndaşlarımız ölkəmizdə virusun yayılmasının qarşısının alınması istiqamətində görülən işləri, sosial-iqtisadi proqramları təqdir edirlər. Bu məktubların hər birində Prezident İlham Əliyevin müdrikliyi və qayğıkeşliyi sayəsində dövlətimizin belə bir qlobal problemin öhdəsindən layiqincə gələcəyinə əminlik ifadə olunur. Eyni zamanda bu təşəkkürlərdə xalqımızın milli həmrəyliyi və İlham Əliyev siyasətinə sədaqət ifadə olunur.

Koronavirusla mübarizə dövlətimizin təhlükəsizliyi və milli həmrəylik məsələsi olsa da, bu kritik günlərdə xalqımız bir daha özünü müxalifət adlandıran bəzi marginal qrupların iç üzünü gördü. Demokratik ölkələrin təcrübəsi göstərir ki, dövlətin və xalqın üzləşdiyi təhlükəli situasiyalarda iqtidar-müxalifət mövzusu arxa plana keçir və hər bir vətəndaş, hər bir siyasi qüvvə potensialını milli maraqlar naminə səfərbər edir. Lakin təəssüflə qeyd etməliyik ki, AXCP və "milli şura" adlı antimilli qaragüruh qruplaşmaların timsalında Azərbaycanda bunun əksi müşahidə olunur.

Öncə onu qeyd edim ki, hakimiyyətdən uzaqlaşdırılmasından ötən illər ərzində də bu qruplaşma Azərbaycan dövlətinin və xalqının milli maraqlarına zidd fəaliyyət göstərib, daim ona qarşı çıxıb, düşmən dəyirmanına su töküb. Onlar mübarizə metodunu ancaq antiazərbaycançı fəaliyyətdə, respublikamızın müstəqilliyini və yüksəlişini həzm edə bilməyən xarici dairələrlə əməkdaşlıqda, müəyyən dairələrdən aldıqları sifarişlər əsasında qarşıdurmalar və iğtişaşlar yaratmaqda görüblər. Ona görə də xalqın etimadından birdəfəlik məhrum olublar. Eyni zamanda simasız və sosial bazadan məhrum olan təşkilatlara çevriliblər. Sıralarında kimsə qalmayıb.

Azərbaycan cəmiyyəti nə vaxtsa onların dövlətimizin uğurlarına sevindiyini görməyib. Əksinə, Əli Kərimlinin və "milli şura" adlandırılan qondarma qurumun ölkəmizin nailiyyətlərinə kölgə salmağa cəhd göstərmələrinin dəfələrlə şahidi olmuşuq. Hətta 4 il əvvəl ordumuzun şanlı aprel zəfəri zamanı da bu bədxahlar sevinmədilər, Azərbaycan əsgərinin qələbəsini dillərinə gətirə bilmədilər.

Koronavirus infeksiyasının yayıldığı və dövlətimizin bu xəstəliyə qarşı qətiyyətlə mübarizə apardığı bir dövrdə də sözügedən qruplaşma antimilli mövqe ortaya qoyur. Görünən odur ki, bunlar virusun Azərbaycanda yayılmasına, insanların vəfat etməsinə sevinirlər. 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan və videokonfrans şəklində keçirilən müşavirədə Prezident İlham Əliyev onları öz adı ilə çağıraraq deyib: "Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq".

Bu günlərdə Əli Kərimli və çevrəsi bir daha antiazərbaycançı mövqedə olduqlarını, dövlətə və xalqa düşmən kəsildiklərini nümayiş etdirdilər. Lakin onların qarşıya qoyduqları məqsədlərə çatmayacaqları şübhəsizdir. Çünki ermənilərə, antiazərbaycançı şəbəkəyə sığınan bu antimilli bədxahlar özləri də fərqindədirlər ki, Azərbaycan dövlətini və Prezidentini hədəfə almaqla istədiklərinə nail olmaları mümkünsüzdür. Həm də mayasında xəyanət duran siyasi mövqe iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 35 min işsiz üçün birdəfəlik vəsaiti köçürdü

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsiz kimi qeydiyyata alınan şəxslərdən daha 35 min nəfər üçün birdəfəlik vəsaiti (190 manat) aidiyyəti üzrə köçürdü.

Bu barədə AZƏRTAC-a nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən birdəfəlik ödəmə proqramının əhatə dairəsi 3 dəfə artırılıb və proqram 600 min şəxsi əhatə edəcək. Aprelin 9-dan gündəlik olaraq ödəniş prosesi həyata keçirilir. Artıq 200 min işsiz üçün birdəfəlik ödəmə təmin edilib.

İşsiz kimi qeydiyyata alınan şəxslər üçün birdəfəlik ödəmə vəsaiti köçürüldükdən sonra onlara qeydiyyata alınmaq üçün müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə bu barədə SMS göndərilir.

İşsiz şəxslər bu mesajı aldıqdan sonra, evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, mesajda "Azərpoçt" MMC qeyd edildiyi halda istənilən poçt şöbəsinə, bank göstərildiyi halda isə həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik ödəməni əldə edirlər.

Ödənişlər qarşıdakı günlərdə də davam edəcək.

## FHN əməkdaşları 750 ailəyə ərzaq yardımı çatdırıblar




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına əsasən, Fövqəladə Hallar Nazirliyi (FHN) ölkəmizdə koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə hazırda davam edən xüsusi karantin rejimi ilə əlaqədar müxtəlif tədbirlər, o cümlədən sosial dəstək tədbirləri həyata keçirir.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, növbəti belə tədbir Bakı şəhərinin Xəzər rayonunda keçirilib. Belə ki, rayon ərazisində yaşayan, xüsusi karantin rejiminin qaydalarına uyğun olaraq sosial izolyasiya şəraitində evdən çıxmaları qadağan edilən yaşı 65-dən yuxarı tənha şəxslərə və aztəminatlı ailələrə, o cümlədən şəhid ailələrinə baş çəkilib, onlara ərzaq məhsullarından ibarət yardımlar çatdırılıb. 750 ailəyə yardım çatdıran FHN əməkdaşları vətəndaşlarla maarifləndirici söhbətlər apararaq, xüsusi karantin rejiminin qaydalarına riayət olunmasının vacibliyindən də danışıblar.

## Qazaxda əlillərə diqqət və qayğı göstərilir




Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına qoşulan Qazax Rayon İcra Hakimiyyəti həyata keçirilən xeyriyyə aksiyasını davam etdirir. Koronavirus (COVID-19) pandemiyasının yayılma təhlükəsi ilə əlaqədar tətbiq olunan gücləndirilmiş karantin rejimi günlərində təşkil olunan xeyriyyə aksiyası çərçivəsində növbəti yardım Qarabağ müharibəsi, Çernobıl və hərbi xidmət əlillərinə edilmişdir. "Biz birlikdə güclüyük!" adlı kampaniya çərçivəsində rayon mərkəzində və kəndlərdə yaşayan 425 nəfər Qarabağ müharibəsi, Çernobıl və hərbi xidmət əlilinə müxtəlif ərzaq məhsullarından ibarət sovqat paylanmışdır. Ərzaq məhsullarının paylanmasında gənc könüllülər və aidiyyəti şəxslər fəallıqla iştirak etmiş, bağlamaları əlillərin yaşadıqları ünvanlara çatdırmışlar.

Ərzaq məhsulları paylanarkən "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Qazax rayon şöbəsinin sədr müavini, I qrup Qarabağ müharibəsi əlili Namiq Alıyev, Qarabağ müharibəsi əlillərindən Baxış Hüseynov, Rəşad Qocayev və başqaları bu ağır günlərdə dövlət tərəfindən göstərilən dəstəyi ölkə vətəndaşlarına olan qayğı kimi dəyərləndirmiş, ölkə başçısına təşəkkürlərini bildirmişlər. Qeyd etmişlər ki, koronavirus pandemiyasının dünyanı ağuşuna aldığı bir vaxtda dövlət başçısının rəhbərliyi altında göstərilən bu qayğı bir daha sübut edir ki, Azərbaycan hakimiyyəti dar gündə də, xoş gündə də vətəndaşlarının yanındadır. "Biz birlikdə güclüyük!" adlı aksiyanın keçirilməsi bunun əyani sübutudur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## 94,7 faizlik inam və etimad ünvanı

Əvvəli 1-ci səh.

Dünyada neft qiymətlərinin aşağı düşməsi, beynəlxalq geosiyasi qarşıdurmaların kəskinləşməsi, II Dünya müharibəsindən sonra dünyada ilk dəfə ən dərin sosial, siyasi, iqtisadi böhran vəziyyətini yaradan yeni qlobal pandemiyanın sürətlə yayılması fonunda Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqın rifahı və firavanlığının yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksəlib.

Sorğuda iştirak edənlərin əksəriyyəti Prezidentin hərbi, siyasi və sosial-iqtisadi sahələrdəki fəaliyyətini çox müsbət dəyərləndirir. Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi sahələrindəki fəaliyyəti respondentlərin mütləq əksəriyyəti tərəfindən daha çox müsbət qiymətləndirilir.

Bu sorğu bir daha sübut edir ki, Azərbaycanda İlham Əliyev siyasi lider kimi, alternativsiz lider kimi xalqın inam ünvanıdır. Bunun izahı isə çox sadədir. Azərbaycan xalqı şahiddir ki, cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, uzaqgörən və ən əsası da, tam müstəqil siyasətlə Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

Son 17 ildə Azərbaycanın çevik və ağıllı dövlət siyasəti, yüksək idarəçilik və humanist siyasətlə inkişafı, milli maraqlarımızın yüksək səviyyədə qorunması və təmin edilməsi cənab İlham Əliyevin ali keyfiyyətləri sayəsində reallığa çevrilib.

Məhz bütün bunlar cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb və Azərbaycan öz qətiyyətli lideri ilə qüdrətli dövlətə çevrilir, parlaq gələcəyə doğru inamla addımlayır.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***

## Prioritetlərdən biri də iqtisadi fəallığı artırmaqdır

Əvvəli 1-ci səh.

İşsiz və qeyri-formal məşğul olan, xüsusi karantin rejimində iş yerini itirmiş insanlarla bağlı bir sıra digər proqramlar da həyata keçirilir. Bunlardan biri Prezident İlham Əliyevin təşəbbüsü ilə elan edilmiş haqqı ödənilən ictimai iş yerləri proqramıdır. Dövlət başçısının tapşırığına əsasən, bu proqramın əhəmiyyəti xeyli artırılmış, əlavə 50 min ictimai iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Artıq proqramın icrasına başlanmışdır. İndiyədək beş min işsiz şəxs bu işlərə cəlb edilmişdir.

Lakin pandemiya ilə bağlı vəziyyət ictimai iş yerlərinin sayının daha da artırılmasını gündəmə gətirmişdir. Videobağlantı formatında keçirdiyi iclasda dövlət başçısı bununla əlaqədar bildirmişdir ki, cari ildə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu sahəyə ciddi nəzarət olmalıdır.

Hazırkı dövrdə həmçinin özünüməşğulluq proqramının əhəmiyyəti daha da artır. Məlum olduğu kimi, bu proqrama Dünya Bankı cəlb edilib. Proqrama eləcə də fəal şəkildə Azərbaycan bankları qoşulub. Bu il 12 min ailə üçün mikro təsərrüfatın yaradılması planlaşdırılır.

Azərbaycan dövlətinin atdığı inamlı addımlar hazırkı çətin şəraitdə iqtisadi fəallığı qoruyub saxlamağa yönəldilib. Sözügedən tədbirdə qeyd edilmişdir ki, indi demək olar bütün ölkələr pandemiya ilə əlaqədar öz sərhədlərini bağlayıblar. Ancaq ticarət və yük daşımaları sahəsində işlər davam edir. Düzdür, ticarət obyektləri bağlı olduğu üçün burada tənəzzül var. Yükdaşımalarda isə vəziyyət nisbətən normaldır. Dövlətin iqtisadi sahədə apardığı siyasət və yaratdığı iqtisadi sabitlik pandemiyaya qarşı mübarizədə ölkəmiz üçün əlavə imkanlar yaradır.

Prezident İlham Əliyev pandemiya bitəndən sonrakı dövrdə hər sahədə işləri uğurla davam etdirmək üçün indidən məqsədyönlü fəaliyyət göstərməyi qarşıya məqsəd kimi qoyur: "Karantin rejimi çərçivəsində biz hansı əlavə addımları atmalıyıq ki, iqtisadi fəallığı heç olmasa müəyyən dərəcədə qoruyaq və karantin rejimi başa çatandan sonra vaxt itirmədən iqtisadi fəallığı artıraq. Ona görə mən deyəndə ki, biz karantin rejimindən mərhələli yollarla çıxmalıyıq, bu, eyni zamanda bizim iqtisadi sahəyə də aiddir... Biz indi dünya praktikasına da baxırıq, artıq bir neçə ölkədə, o cümlədən inkişaf etmiş ölkələrdə belə təşəbbüslər irəli sürülür. Ona görə ki, bu karantin rejimi hər bir ölkənin iqtisadiyyatına çox mənfi təsir göstərir və bu təsir nə qədər davam edəcək, biz bunu deyə bilmərik. Ona görə biz addımlarımızı elə atmalıyıq ki, bu müddət ərzində postkarantin rejiminə daha hazırlıqlı olaq".

***Flora SADIQLI, "Azərbaycan"***

## Prezident hökumətə ciddi tapşırıqlar verdi

### İlham Əliyev qlobal pandemiya dövründə dövlət xərclərinə yenidən baxılması, prioritet təşkil etməyən vəsaitlərin ixtisar edilməsinin vacibliyini bəyan etdi

Əvvəli 1-ci səh.



Qərar 2 aylıq müddəti, yəni aprel və may aylarını əhatə edir. Apreldə mart ayının sərfiyyatları abonentlərə bildiriş olaraq verildiyi üçün may ayında aprelin sərfiyyatı veriləcək və həmin vaxt 400 kilovat/saat nəzərə alınacaq. Həmçinin iyunda may ayı ilə bağlı veriləcək bildirişlərdə də 400 kilovat/saatlıq limit üzrə hesablama aparılacaq. 400 kilovat/saatlıq limitlə bağlı artım yalnız əhali qrupu abonentlərinə şamil olunur.

### 2 min nəfərə ikiqat maaş, 17 min tələbə üçün 40 milyon manat ayrıldı

Bəzi dövlətlərdən fərqli olaraq Azərbaycanda pandemiya dövründə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Prezident İlham Əliyevin aprelin 14-də imzaladığı digər sərəncama əsasən isə 2 min nəfərə aylıq vəzifə maaşının bir misli miqdarında əlavə pul veriləcək. Belə ki, sənəddə koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə elan edilmiş xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının bir misli miqdarında müddətli əlavə müəyyən edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, xüsusi karantin rejimi dövründə yaşı 65-dən yuxarı olan şəxslərin pandemiyadan qorunması məqsədi ilə sosial xidmət işçiləri səfərbər edilmiş, gücləndirilmiş iş rejimi şəraitində həmin kateqoriyadan olan insanlar evlərində gündəlik sosial xidmətlərlə təmin olunurlar. Bu kateqoriyadan olan 15 mindən çox tənha yaşlıya evlərində sosial xidmətlər göstərilir.

Həmçinin Nazirlər Kabinetinin qərarı ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi isə semestrlər üzrə həyata keçiriləcək. Belə ki, tələbənin təhsil haqqı xərcinin 50 faizi 2019-2020-ci ilin yaz semestri üzrə, 50 faizi isə 2020-2021-ci tədris ilinin payız semestri üzrə elektron qaydada ödəniləcək. Bu qərar 17 min tələbəni əhatə edir. Bunun üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaiti ayrılıb.

Əlbəttə ki, dövlət başçısının bu sərəncamları xüsusi karantin rejimi dövründə vətəndaşlara sosial xidmətlərin səmərəli təşkilinə xidmət edən şəxslərə, ümumiyyətlə, sosial xidmət işçilərinin əməyinə verilən yüksək dəyərin və onlara xüsusi qayğının ifadəsidir.

### Azərbaycan koronavirusla mübarizə sahəsində nümunəvi ölkədir

Bütün bu uğurlu proseslərə baxmayaraq, dövlət başçısı iqtisadi vəziyyətə pandemiyanın təsirinin qaçılmaz olduğunu bildirərək hökumətə ciddi tapşırıqlar da verdi. Xüsusilə Baş Nazirə, maliyyə nazirinə və iqtisadiyyat nazirinə göstəriş verən Prezident dövlət xərclərinə yenidən baxılmasını və prioritet təşkil etməyən xərclərin ixtisar edilməsini tapşırdı. Eyni zamanda vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır.

Ancaq Prezident əmindir ki, çətinliklərə baxmayaraq 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq: "Bizim bu sahədə görülən işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, mən minlərlə elektron məktub alıram. Bu məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır.

Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq".

Hər zaman xalqın sosial rifahının yüksəlməsi üçün mühüm addımlar atan, böyük sosial paketlər təqdim edən Prezident İlham Əliyev qlobal pandemiya dövründə də əməllərinə sadiqlik nümayiş etdirir. Bu da bir daha təsdiq edir ki, Azərbaycanda sosial dövlət modelinin fundamental əsasları formalaşıb. Vətəndaşının maraqlarını hər şeydən üstün tutan dövlət sosial ədalət prinsiplərinin bərqərar olmasına xüsusi diqqət göstərir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Xüsusi karantin rejiminin müddətinin uzadılması ilə əlaqədar Azərbaycan-İran sərhədinin mayın 4-dək bağlı saxlanılmasına qərar verilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 aprel tarixli Qərarına əsasən, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə uyğun olaraq, ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi 2020-ci il 4 may saat 00:00-dək uzadılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinin müvəqqəti bağlı saxlanılması barədə qərarın müddəti 2020-ci il 4 may saat 00:00-dək uzadılır.

## Azərbaycan-Gürcüstan sərhədi mayın 4-dək bağlı saxlanılacaq

Xüsusi karantin rejiminin müddətinin uzadılması ilə əlaqədar olaraq Azərbaycan-Gürcüstan sərhədinin mayın 4-dək bağlı saxlanılmasına qərar verilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 aprel tarixli Qərarına əsasən, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə uyğun olaraq, ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi 2020-ci il 4 may saat 00:00-dək uzadılıb. Bununla əlaqədar Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin müvəqqəti bağlı saxlanılması barədə qərarın müddəti 2020-ci il 4 may saat 00:00-dək uzadılır.

## Daha 10 min şəxs ödənişli ictimai işlərə cəlb olunub



Prezident İlham Əliyevin tapşırığına əsasən ödənişli ictimai iş yerlərinin sayının 37 mindən 90 minə çatdırılması üçün müvafiq işlər aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, ƏƏSMN-nin DOST İş Mərkəzi vasitəsilə hazırda ödənişli işlərdə çalışan 37 min işçidən əlavə, daha 10 min şəxs haqqı ödənilən ictimai işlərə cəlb olunub.

Yeni yaradılan ictimai iş yerləri əsasən dezinfeksiya işlərinin aparılması, həssas qruplara sosial xidmətlərin göstərilməsi və s. kimi sahələri əhatə edir. Yeni ödənişli ictimai iş yerlərinin yaradılması pandemiya ilə əlaqədar ölkədə əhalinin məşğulluq imkanlarının artırılmasına xidmət edir və proses gündəlik olaraq davam edəcək.

## Paytaxtda aparılan gücləndirilmiş tibbi-profilaktik və dezinfeksiya işləri 250-yə yaxın əsas küçəni əhatə edib





Dövlət başçısının tapşırıqlarının icrası ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə tədbirləri daha da gücləndirilib. Bu məqsədlə aprelin 18-də səhər saatlarından etibarən şəhərin bütün rayonlarında genişmiqyaslı dezinfeksiya tədbirləri həyata keçirilib. Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, günün sonuna yaxın aparılan müşahidələr aksiyanın uğurla keçdiyini göstərib. Qeyd olunan müddətdə paytaxtın 250-yə yaxın əsas küçəsində tibbi dezinfeksiya işləri aparılıb.

Tədbir çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən 31 ədəd xüsusi təyinatlı avtotexnika vasitəsi ilə şəhərdə hərəkətin intensivliyi və sıxlığı ilə seçilən, nəqliyyat vasitələri və piyadaların ən çox istifadə etdiyi küçə və prospektlər xüsusi kimyəvi maddələrlə dezinfeksiya olunub.

Daxili İşlər Nazirliyinin öz təşəbbüsü ilə qoşulduğu və Fövqəladə Hallar Nazirliyinə aid xüsusi təyinatlı texnikalarının, şəhər strukturlarının iki mindən çox əməkdaşının iştirak etdiyi bu genişmiqyaslı tədbir paytaxtın bütün rayonlarını əhatə edib. Xüsusi kimyəvi maddələrlə aparılan bu işlərə cəlb edilən əməkdaşlar xüsusi qoruyucu geyimlərlə təmin olunublar. Tibbi-profilaktik və dezinfeksiya işləri Bakı sakinlərinin təhlükəsizliyinə yönəldilən tədbirlərin bir hissəsi olaraq davam etdiriləcək.

## Tarla da döyüş meydanıdır



Koronavirus dünyanın nizamını dəyişdi və bütün dövlətlər gözlənilməz çətinliklərlə üzləşdi. Ağlasığmaz itkilər baş verir, iqtisadiyyatın ən gəlirli sahələri iflic olur, sıradan çıxır, hamı özlüyündə naməlum və nə vaxt bitəcəyi bəlli olmayan sirli savaşla üz-üzə qaldığını dərk edir. Belə bir mürəkkəb zamanda Azərbaycan nikbinliklə qarşıya çıxan çətinliklərə sinə gərir və inamla irəli gedir.

Aprelin 14-də Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda koronavirusun planeti bürüməsinə baxmayaraq, iqtisadi göstəricilərimizin müsbət olduğunu qeyd edərək əsas diqqətini bu çətin dövrdə qarşıda duran vəzifələrin və problemlərin yubadılmadan həllinə, iqtisadiyyatın mühüm sahələrinin sabit inkişafına yönəltmişdir.

"Karantin rejimi kənd təsərrüfatı işlərinə mane olmamalıdır". Dövlət başçısı bunu deməklə aqrar sektorun ən mühüm sahələrdən biri olduğunu hamının diqqətinə çatdırmış, müvafiq göstərişlərin verildiyini bildirmişdir. Əsas tələb belədir: şəhərlərarası nəqliyyatın dayandırılmasına baxmayaraq, kənd təsərrüfatı sahəsində karantin rejimi heç bir problem yaratmalı deyil, insanların gediş-gəlişi təmin edilməlidir.

Prezidentin bu tələbi bütün bölgələrdə dəmir qayda kimi icra olunur. Fermerlər, torpaq sahibləri bütün rayonlarda arayışlarla təmin olunaraq maneəsiz hərəkət edə bilirlər. Qubadan tanıdığımız fermerlərdən biri Qoşqar Bəkirli deyir ki, yaradılan şəraitdən, göstərilən xüsusi qayğıdan razıdır: "Anlayırıq ki, bir ovuc torpaq bizim üçün döyüş yerinə çevrilmişdir. Əkib becərdiyimiz nemətlər bu çətin günlərdə yalnız bizim yox, hər bir ölkə vətəndaşının ruzisidir. Payızı fikirləşmirik, qiymətlərin qalxıb enəcəyi də eynimizə deyil. Nə qədər çox əkib becərsək, bir o qədər güzəranımız asan olacaq. Güvən yerimiz dövlət və əlimizin qabarıdır".

Ölkənin aqrar sektorunda çalışan insanlarda bu əminlik və ruh yüksəkliyi ona görə yaranır ki, dövlət fermerləri öz qayğıları ilə başlı-başına buraxmır, onlardan mənəvi və maddi dəstəyini əsirgəmir. Azərbaycan Prezidenti hesab edir ki, indiki şəraitdə həm də kənd təsərrüfatı məhsullarının emalı sahəsinə daha çox diqqət yetirilməlidir: "Çünki biz əlavə dəyər zənciri yaratmalıyıq və çalışmalıyıq ki, həm daxili bazara, həm də xarici bazarlara daha çox hazır məhsul təqdim edək. Eyni zamanda bu, yeni iş yerlərinin yaradılmasına da gətirib çıxaracaq. Əlbəttə ki, kiçik sahibkarlar da yaddan çıxmamalıdır".

Faktiki olaraq bu gün kənd təsərrüfatının xüsusi karantin rejiminin tələbləri çərçivəsində sabit fəaliyyət göstərməsi üçün zəruri olan bütün addımlar atılmış, işlərin fasiləsiz həyata keçirilməsi üçün Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birgə iş qurulmuşdur. Bu il üçün respublika üzrə 1 milyon hektardan çox sahədə taxıl əkilmişdir. Həmin taxılı yığmaq üçün 1770-dən çox taxılbiçən kombayn var. Biçinəcən daha 125 kombaynın alınması nəzərdə tutulur. 21 rayonda 100 min hektar sahədə pambıq əkini proqnozlaşdırılmış və artıq 19 mindən çox istehsalçı ilə müqavilələr bağlanılmış, əkin sahələrinin toxum, gübrə, pestisidlə təminatı ilə bağlı tədbirlər görülmüşdür. Tütün, şəkər çuğunduru, bostan-tərəvəz, kartof əkini üzrə tədbirlər də həyata keçirilir, yeni meyvə bağları salınır. Bunlardan əlavə, ölkəyə lazımi miqdarda mineral gübrə idxal olunmuşdur. Bu ildən yerli istehsal gübrəsi olan karbomid də fermerlərin əlindən tutacaqdır. Başqa bir fakt: bu günədək elektron sistemdə 484 mindən artıq fermerin 321 min nəfərdən çoxuna subsidiyalar ödənilmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, konfransın ruhu zamanın tələbinə uyğun daha çox qarşıya çıxa biləcək çətinliklərin sürətlə aradan qaldırılmasına köklənmişdir. Müşavirədə çıxış edən Kənd Təsərrüfatı naziri İnam Kərimov bir sıra bankların fermerlərə kredit verərkən girov tələb etməsi barədə dövlət başçısına məlumat verdi, payızlıq əkinlərin vegetasiya dövründə müşahidə olunan kəskin quraqlığı xatırlatdı, illik yağıntı və qarın miqdarının normadan kəskin dərəcədə aşağı olmasının əkin sahələrinin suvarılmasında çətinliklər yaratdığını bildirdi. Dövlət başçısı nazirin çıxışındakı bu məqamlara anında reaksiya verərək, aqrar sektorda müsbət tendensiyaları qeyd etməklə yanaşı, sadalanan problemlərin ardıcıl həlli mexanizmlərini göstərdi, kənd təsərrüfatı məhsulları istehsalının həm daxili tələbatı ödəmək, həm də xarici bazarlara daha çox məhsul çıxarmaq üçün yüksək templə inkişaf etməsinin zəruriliyini vurğuladı. Prezident qeyd edilən məsələlərin təcili həllinin dövlətin maliyyə dəstəyindən asılı olduğunu bildirdi və bu məqsədlər üçün 30 milyon manat vəsait ayrılacağını dedi. Dövlət başçısı özünə xas operativlik və uzaqgörənliklə elə həmin gün koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəsaitinə ehtiyacının qarşılanması məqsədi ilə aqrar sektorda təminatsız mikrokreditlərin verilməsi üçün Prezidentin Ehtiyat Fondundan Aqrar Kredit və İnkişaf Agentliyinə 30 milyon manat vəsait ayırmışdır.

Dövlət başçısı quraqlıqla bağlı nazirin verdiyi məlumata da diqqətlə yanaşmışdır: "Bilirsiniz ki, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq var. Bəzi proqnozlar onu göstərir ki, Azərbaycanda bəlkə on ildən, iyirmi ildən sonra səhralaşma prosesi də istisna deyil. Ona görə biz bəri başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlığı xatırlamırlar. Bu il də quraqlıq gözlənilir. Ona görə də su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir. Heç kimə sirr deyil ki, su olan yerdə məhsuldarlıq da artır və insanların dolanışığı da yüksəlir. Məhz bu məqsədlə ölkəmizdə bir neçə önəmli genişmiqyaslı layihə icra edilmişdir. Əgər Şəmkirçay su anbarı, Taxtakörpü su anbarı vaxtında tikilməsəydi, kanallar çəkilməsəydi, o sudan qidalanan rayonlarda böyük çətinliklər ola bilərdi. Biz son bir neçə il ərzində orta hesabla təqribən yüz min hektara yaxın torpağa suyun verilməsini təmin edirik".

Prezident aqrar təsərrüfatların və fermerlərin suya tələbatını ödəmək üçün yeni proqram tərtib edilməsinin zəruriliyini diqqətə çatdırmış, artıq köhnə suvarma metodlarından imtina etməyin zamanının gəldiyini bildirmişdir. Köhnə suvarma sistemləri tələb olunan səviyyədə səmərəli deyil, çünki dünyada daha yeni meliorasiya texnologiyaları tətbiq edilir. Prezident videokonfransda mövqeyini belə açıqlamışdır: "Biz indi bu işləri dədə-baba üsulu ilə görə bilmərik. Yeni texnologiyalar tətbiq edilməlidir. Mənə verilən məlumata görə, bəzi yerlərdə suyun itkisi 40-50 faizə çatır. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük investisiya qoyulub. Amma vaxtilə tikilmiş qurğuların, infrastrukturun bir çoxu çürüyüb və həm suyun çatdırılmasına imkan vermir, həm də həmin sızmalar torpağın şoranlaşmasına gətirib çıxarır. Ona görə də biz burada iki ziyan görürük. Onu da bilməliyik ki, bizim su ehtiyatlarımız o qədər də geniş deyil və əsas su mənbələrimiz sərhədlərimizin kənarında formalaşır. Ona görə hər damcı su bizim üçün önəmlidir".

Bu gün hər birimizin bilməyi vacibdir ki, işğalçı Ermənistan yalnız ərazilərimizi yox, həm də su ehtiyatlarımızın müəyyən bir qismini ələ keçirmişdir. Azərbaycan Prezidenti bizi gözləyə biləcək təhlükələrin qarşısının indidən alınması üçün daha yeni islahatlar modelinin aqrar sektora tətbiqinin zəruriliyini dilə gətirmiş və yaradılan komissiyanın konturlarını da təqdim etmişdir: "Hesab edirəm ki, komissiyaya Baş Nazirin müavini Şahin Mustafayev rəhbərlik etməlidir. Çünki Şahin Mustafayev İqtisadiyyat naziri işlədiyi dövrdə bu məsələ ilə fəal məşğul olub və mənə müntəzəm olaraq məruzələr edib. Komissiyada aidiyyəti qurumların rəhbərləri - Kənd Təsərrüfatı naziri, İqtisadiyyat naziri, Ekologiya və Təbii Sərvətlər naziri, "Meliorasiya və Su Təsərrüfatı" Səhmdar Cəmiyyətinin, "Azərsu" Səhmdar Cəmiyyətinin rəhbərləri və digər aidiyyəti qurumların rəhbərləri təmsil olunmalıdır ki, konkret tədbirlər planı hazırlansın. Demək olar ki, indi təhlillə bağlı materiallar və belə məlumatlar var. Əsas məsələ odur ki, nə etməliyik, hansı addımları atmalıyıq. Yəqin xarici mütəxəssisləri də cəlb etməliyik ki, bizə yaxşı məsləhətlər versinlər. Biz suyun hər bir damcısının qədrini bilməliyik".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

Biz birlikdə güclüyük!

# Dissertasiya işləri və elmi məqalələrin yazılması tam nəzarətdədir

AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu öz fəaliyyətini Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirus pandemiyası və xüsusi karantin rejimi ilə bağlı tələblərinə, eləcə də "Evdə qal, lakin elmi fəaliyyətdən kənarda qalma" çağırışlarına uyğun olaraq onlayn rejimdə davam etdirir.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, bu barədə AMEA-nın vitse-prezidenti, Biologiya və Tibb Elmləri Bölməsinin sədri, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova məlumat verib.

İradə Hüseynova institutun şöbə və laboratoriya müdirləri ilə hər səhər onlayn formada əlaqə saxlayaraq onların fəaliyyəti ilə maraqlandığını, tapşırıq və tövsiyələrini verdiyini, distant dərslərdə iştirak etdiyini bildirib. O, həmçinin rəhbəri olduğu doktorant və magistrantlara məsləhətlərini verdiyini, dissertasiya işləri və elmi məqalələrin yazılmasının tam nəzarətdə olduğunu söyləyib.

İnstitut əməkdaşlarının COST proqramı üzrə meqalayihəyə qoşulduqlarını deyən akademik İ.Hüseynova Fransanın koordinatorluğu ilə həyata keçirilən, 22 Avropa ölkəsinin iştirak etdiyi "Oksigen zondlama - meyvələrin keyfiyyətinin biologiyası və texnologiyası üçün yeni vasitə" adlı bu layihədə rəhbərlik etdiyi qurumun əməkdaşlarının Azərbaycanı təmsil edəcəklərini nəzərə çatdırıb. Bununla əlaqədar, layihə iştirakçılarının e-COST sistemində qeydiyyatdan keçərək öz profillərini aktivləşdirdiyini vurğulayıb.

Alim bildirib ki, hazırda institutun elmi işçiləri elmi-tədqiqat nəticələrinin analizi və məqalələrin yazılması üzərində intensiv işləyirlər: "Son günlərdə 4 məqalə hazırlanaraq, "Journal of Agricultural Sciences", "Bulgarian Journal of Agricultural Science", "Journal of International Microbiology", "International Journal of Molecular Sciences" kimi yüksək impak faktorlu beynəlxalq jurnallara təqdim edilib. "Gene" jurnalına çap üçün təqdim olunan məqaləyə gələn resenzent rəylərinin cavablandırılması üzrə işlər isə yekunlaşmaq üzrədir. Hüceyrənin membran sistemləri laboratoriyasının əməkdaşlarının apardıqları tədqiqatların nəticələrini əks etdirən məqalə 2.327 impakt faktora malik "Functional Plant Biology" jurnalında çapa qəbul olunub".

O, öz elmi redaktorluğu ilə hazırlanan "Ali bitkilərdə karbonun ilkin assimilyasiyasının tənzimlənmə xüsusiyyətləri" adlı monoqrafiyanın tamamlanması üzrə işlərin davam etdirildiyini də bildirib.

İ.Hüseynova institutun doktorant və dissertantlarının tədqiqatlarının nəticələrini müxtəlif bioinformatik proqramlarla analiz etdiyini, onlar tərəfindən buğdadan və onun yabanı formalarından ayrılan Dreb geninin nukleotid ardıcıllıqlarının NCBİ beynəlxalq biotexnoloji məlumat bazasında yerləşdirildiyini bildirib. Qeyd edib ki, son günlərdə gənc alimlər molekulyar biologiya sahəsində bir neçə beynəlxalq vebinarda iştirak ediblər. Aprelin 11-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Dünya və gənclər yeni şəraitdə" onlayn forumuna institutun 5 gənc alimi qatılıb.



İnstitut direktoru Bioinformatika və Beynəlxalq Hesablama struktur biologiyası laboratoriyalarının fəaliyyətində heç bir ləngimənin baş vermədiyini, plan üzrə nəzərdə tutulan tədqiqatların tam şəkildə yerinə yetirildiyini diqqətə çatdırıb. O, həmçinin Beynəlxalq Hesablama struktur biologiyası laboratoriyasının müdiri, Kembric Universitetinin professoru Qərib Mürşüdovun həmişə olduğu kimi, onlayn rejimdə struktur biologiyanın əsasları və statistika sahəsində laboratoriya işçilərini istiqamətləndirməyə davam etdiyini vurğulayıb. Qeyd edib ki, institutun Təhsil şöbəsi AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin "AMEA-nın magistrantları üçün distant (məsafədən) tədrisin təşkil edilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar qısa müddət ərzində institutun professor-müəllim heyəti ilə magistrantlar arasında müxtəlif telekommunikasiya vasitələri ilə əlaqə yaradıb, tədris planlarında nəzərdə tutulan bütün ixtisas fənləri üzrə distant dərslərin aparılması təmin edilib. Eyni zamanda, II kursda təhsil alan magistrantlar distant olaraq elmi-pedaqoji təcrübəyə başlayıblar və elmi rəhbərləri ilə birgə onlayn rejimdə dissertasiya işlərinin yekunlaşdırılması üzərində işləyirlər.

"İnstitutun Beynəlxalq və İctimaiyyətlə əlaqələr şöbəsi də xüsusi karantin rejimində öz fəaliyyətini uğurla davam etdirir", - deyən akademik İ.Hüseynova əməkdaşların gördüyü işlər, apardıqları araşdırmalar, distant təhsil, virtual dərslər, dünyada və ölkəmizdə koronavirus pandemiyası ilə bağlı son məlumatlar, bu virusla mübarizə məqsədilə görülən tədbirlər haqqında məlumatların müntəzəm olaraq imbb.az saytında işıqlandırıldığını vurğulayıb.

Akademik bildirib ki, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun "Elmi Əsərləri"nin IV cildinə məqalələrin toplanmasına başlanılıb. Redaksiyanın elektron ünvanına daxil olan məqalələr rəyə göndərilir və redaksiya üzvlərinin onlayn müzakirəsinə təqdim olunur.

Akademik İ.Hüseynova, həmçinin rəhbərlik etdiyi qurumun alim və mütəxəssislərinin kütləvi informasiya vasitələrində koronavirus pandemiyası ilə əlaqədar çoxsaylı çıxışlar etdiyini, müsahibələr verdiyini bildirib.

# Milli Kitabxana fəaliyyətini virtual rejimdə davam etdirir

Bu gün bütün dünyanı bürüyən yeni koronavirus (COVID-19) infeksiyası ölkəmizdə də insanlar üçün böyük çətinliklər yaradıb. Əhaliyə ictimai yerlərə getməmək, mümkün olduğu qədər evdə oturmaq tövsiyə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qabaqlayıcı tədbirlər sayəsində hamı bu təhlükədən ən minimum zərərlə qurtarmaq üçün əlindən gələni edir.

Həmin tədbirlər çərçivəsində məktəblər, kitabxanalar, muzeylər, teatrlar, konsert salonları bağlanmışdır. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə bir çox müəssisələr müvəqqəti olaraq bağlansalar da, öz fəaliyyətlərini onlayn rejimdə davam etdirirlər. Ölkə Prezidentinin "Evdə qal, özünü qoru" çağırışına səs verərək Milli Kitabxananın kollektivi də Mədəniyyət Nazirliyinin "Evim, mənim yeni iş yerim" çağırışına qoşularaq onlayn rejimdə oxuculara xidmət göstərir.

Son dövrlərdə ölkə başçısı kitabxanaların səmərəli fəaliyyət göstərməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi üçün bir sıra xüsusi əhəmiyyətli sənədlər imzalamışdır. Həmin sənədlərin icrası nəticəsində kitabxana-informasiya sahəsində yeni texnologiyalar tətbiq edilmiş, müasir kitabxana-informasiya infrastrukturu yaradılmış və istifadəçilərə göstərilən xidmətlərin sayının və keyfiyyətinin artırılması, əhalinin intellektual potensialının, bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün əlverişli zəmin yaradılmışdır.

Respublikanın baş kitabxanası olan Milli Kitabxana "Elektron hökumət" Konsepsiyasının icrası ilə əlaqədar oxuculara kitabxana-informasiya xidmətinin elektronlaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, oxuculara virtual xidmət üçün müvafiq infrastrukturun və proqram təminatının yaradılması istiqamətində bir sıra kreativ yönlü layihələr həyata keçirmişdir. Məhz bu tədbirlərin icrası nəticəsində istifadəçilərə onlayn rejimdə informasiya-biblioqrafiya xidmətləri göstərilməsi üçün real şərait yaranmışdır.

Milli Kitabxananın Elektron kataloq və Elektron kitabxana resurs bazalarında toplanmış materiallar haqqında məlumatların sosial şəbəkələrdə təbliği istifadəçilərin kitabxanalara cəlb olunmasına, onların imicinin yüksəlməsinə və mütaliəyə marağın artmasına səbəb olur. Oxucuların şəbəkələrdə məhz kitabxana saytlarından istifadə edərək, özlərinə faydalı və dəqiq məlumatları əldə etmələri, həmçinin kitabxana işçiləri ilə dialoqa girmələri, şərhlər yazıb müxtəlif məsələlərə aid öz fikirlərini bildirmələri bu gün qarşıda duran vəzifələrdəndir. Koronavirus dövründə kitabxana resurslarının sosial şəbəkələrdə təqdim edilməsi isə kitaba, mütaliəyə olan marağı daha da artırmışdır.

Milli Kitabxananın əməkdaşları Mədəniyyət Nazirliyi və "Kreativ Azərbaycan" portalı tərəfindən irəli sürülən "Evdə qal, evdə yarat" təşəbbüsünə qoşularaq, vətəndaşların bu müddətdə vaxtlarını səmərəli keçirmələri məqsədilə hazırladıqları informasiya resurslarını kitabxananın "Facebook" səhifəsində yerləşdirirlər.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə elan edilən "Könüllülər ili" ilə əlaqədar kitabxananın nəzdində fəaliyyət göstərən Açıq kitabxananın "Könüllülər qrupu" vəziyyətlə əlaqədar insanların ev şəraitində səmərəli vaxt keçirmələri üçün maraqlı kitabların linklərini, video görüntülərini və xülasələrini kitabxananın "Facebook" səhifəsi vasitəsilə onlayn şəkildə oxuculara təqdim edir. Onu da qeyd edək ki, bu təşəbbüs çox bəyənilir. Onlar hətta oxumaq istədikləri kitabları bu gün artıq bizə sosial şəbəkələr vasitəsilə yazırlar.

Qlobal internet şəbəkəsi yaranana qədər biz mütaliə üçün seçmək istədiyimiz ədəbiyyat haqqında məlumatı yaxınlarımızdan, dostlarımızdan və kitabxanaçılardan əldə edirdik. Hazırda oxunmuş kitablar haqqında diskussiyalar, kitabxanaçıların məsləhətləri, kitab buktreylerlərinin yerləşdirilməsi, əsərlərdən olan sitatlar, elektron kitabxanalara və müxtəlif növ xidmətlərə istinadlar istifadəçiyə ürəyincə olan kitabları seçməyə imkan yaradır və bu da, öz növbəsində, sosial mediada kitabxana səhifələrinin vacib atributudur.

Son zamanlar gənc nəslin öz fikirlərini istər yazılı, istərsə də şifahi formada düzgün ifadə edə bilməməsi haqqında fikirlər çox tez-tez səslənir. Bu mənada kitabxana bloqlarında verilən şərhlər öyrədici bir vasitə ola bilər və savadlı kitabxana kadrlarının şərhləri istifadəçi üçün bir nümunəyə çevrilər. Əgər istifadəçi müxtəlif mesencerlərlə ünsiyyətdə səhvlərə yol verirsə və bunun şəxsi xarakter daşıdığını deyib özünə bəraət qazandırırsa, kitabxana saytlarında və bloqlarında isə o, öz fikirlərini daha düzgün ifadə etməyə çalışacaqdır. Məhz buna görə də indi qlobal internet və digər sosial şəbəkələr insanların, xüsusilə gənclərin yaxın məsləhətçisinə çevrilirlər.

İnformasiyalı cəmiyyət şəraitində elm və texnika çox sürətlə inkişaf edir və bu sürətli inkişaf ilə əlaqədar olaraq kitabxanaların siması dəyişir. Müasir kitabxanaların oxucuları yalnız qiraət zallarında mütaliə edənlər deyil, həm də onlayn istifadəçilərdir. Buna görə də onlayn istifadəçilərin kitabxana haqqında, onların təqdim etdiyi xidmətlər, o cümlədən virtual xidmətlər barədə istənilən şəkildə məlumatlı olmalarına şərait yaratmaq lazımdır. Bu məramı yerinə yetirməyə çalışan və respublikamızda yaranan şəraitlə



əlaqədar Milli Kitabxana qısa zaman kəsiyində istifadəçilərə kitabxana-informasiya xidmətini onlayn rejimdə təqdim etmək üçün xidmət miqyasını genişləndirib, kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaratmışdır. Gün ərzində kitabxananın oxu zallarında mütaliə edən, elmi tədqiqatlar və araşdırmalar aparan alimlərimiz, tədqiqatçılarımız, gənclərimiz, kitabsevərlərimiz artıq bu gün kitabxanamızın onlayn xidmətlərinə müraciət edirlər və onlara lazım olan resurslar tez bir zamanda istifadəçilərin elektron ünvanlarına göndərilir. Kitabxananın aşağıdakı onlayn xidmətləri tam qüvvəsi ilə oxucular üçün aktivdir:

Biblioqrafik sorğu http://anl.az/new/-az/ask-us/21/43,

Sənədlərin sifarişi və elektron çatdırılması http://anl.az/new/az/pages/75,

Virtual sərgi http://anl.az/new/az/pages/79 ,

Metodiki xidmət (kitabxanalar üçün) http://anl.az/new/az/methodical-service/20.

Milli Kitabxananın əməkdaşları öz evlərini yeni iş yerlərinə çevirərək, onlayn kitabxana-informasiya xidməti fəaliyyətlərini xeyli gücləndirərək mart ayının 11-dən tam şəkildə bu rejimdə istifadəçilərə kitabxana xidmətinin təşkilinə start vermişlər. Həmin gündən aprelin 14-dək Milli Kitabxana onlayn xidmətlər pəncərəsi vasitəsi ilə 2387 istifadəçiyə sənədlərin elektron çatdırılması xidmətini göstərmişdir. Bu müddət ərzində həmin istifadəçilərə 3906 kitab və 7828 məqalənin elektron verilməsi işi təmin olunmuşdur. Biz kitabxanamızın "Onlayn xidmətlər" pəncərəsinə sifariş göndərən istifadəçilərin Milli Kitabxananın Elektron resurslar bazasında mövcud olmayan sorğularını da cavabsız qoymuruq və onların sifarişi ilə 5 nəfər əməkdaşımız növbə ilə hər iki gündən bir kitabxanaya gələrək həmin informasiya resurslarını rəqəmsallaşdıraraq birbaşa oxucuların elektron ünvanlarına göndərirlər. İndiyədək bu yolla 74 kitab və 465 məqalə rəqəmsallaşdırılaraq oxuculara göndərilmişdir.

Milli Kitabxana "anl.az" saytındakı "Elektron kataloq və elektron kitabxana" bölməsi vasitəsilə oxuculara virtual xidmətlərini də davam etdirmişdir. Bu bölməyə 388 323 nəfər yalnız kitabları onlayn oxumaq üçün müraciət etmişdir. Bu dövr ərzində bütövlükdə kitabxananın saytına daxil olanların sayı 482 630 nəfər olmuşdur.

Milli Kitabxananın saytında respublika kitabxanalarından gələn virtual sifarişlərin qəbulu üçün fəaliyyət göstərən onlayn "Metodik xidmət" bölməsinə gün ərzində yüzlərlə onlayn sifariş daxil olur. Bu sifarişlərin ödənilməsi bölgələrdə oxuculara kitabxana-informasiya xidmətini təmin edir. Milli Kitabxananın elektron bazasından istifadə etməklə bölgələrdə oxuculara verilən rədd cavablarının qarşısı alınır.

Hamıya bəllidir ki, Milli Kitabxana görkəmli şəxsiyyətlərə və əlamətdar tarixi hadisələrə dair daim ənənəvi sərgilər təşkil edir və bu da geniş oxucu kütləsinin marağına səbəb olur. Vəziyyətlə əlaqədar kitabxananın işgüzar kollektivi bu gün ənənəvi kitab sərgilərini virtual sərgilərlə əvəzləndirib. Bu məqsədlə onlar evdə qalaraq Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimovun anadan olmasının 120 illiyi ilə əlaqədar "Süleyman Rəhimov-120", "Yurdumuza bahar gəlir", Azərbaycanın ilk Xalq şairi Səməd Vurğunun doğum günü münasibətilə "Xalq şairi Səməd Vurğun", "31 Mart - Azərbaycanlıların soyqırımı günü", "Aprel döyüşləri bizim şanlı qələbəmizdir", ədəbiyyat tariximizdə müstəsna xidmətləri olan görkəmli ədib, ictimai-siyasi xadim Nəriman Nərimanovun 150 illik yubileyi ilə bağlı "İctimai-siyasi xadim, yazıçı, publisist Nəriman Nərimanov-150", "Azərbaycanın tarixi abidələri" adlı elektron məlumat bazaları və virtual kitab sərgiləri hazırlamış, sosial şəbəkələr və Milli Kitabxananın saytı vasitəsilə istifadəçilərə təqdim etmişlər. Təqdim olunan bu bazalarda mövzuya dair kitab və məqalələrin tam elektron mətni, videogörüntülər və digər sənədlər nümayiş olunmuşdur.

Azərbaycan Milli Kitabxanası hər il çoxlu sayda biblioqrafik və metodik vəsaitlər, informasiya göstəriciləri, məlumat nəşrləri hazırlayıb kitabxana ictimaiyyətinə, oxucularına təqdim etməklə onların mütaliəyə marağının artırılmasına kömək edir və öz sahələri üzrə istiqamətlənmələrində, axtarışlarının operativləşdirilməsində əhəmiyyətli rol oynayır. Vəziyyətlə əlaqədar bu gün Milli Kitabxananın metodik nəşrlərinin də virtual rejimdə təqdimatına başlanılıb. Azərbaycan Milli Kitabxanası ölkənin bütün kitabxanaları üçün metodik mərkəz funksiyasını həyata keçirərək tövsiyələrini kitabxanaçılara onlayn rejimdə təqdim edir.

Dəyərli oxucularımız, xalqımız üçün bu çətin günlərdə də Milli Kitabxananın əməkdaşları oxucularının yanındadır və var qüvvəsi ilə çalışırlar. Xahiş edirik, sizlərə lazım olan resursları əldə etmək üçün Milli Kitabxananın onlayn xidmətlərinə yazın.

***Ədibə İSMAYILOVA,***
***Milli Kitabxananın Kitabxana-informasiya xidməti üzrə direktor müavini, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı***

# Müqəddəs borc

Respublikamızda koronavirusla mübarizə istiqamətində Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə həyata keçirilən aztəminatlı ailələrə və yaşlı, ahıl şəxslərə yardım aksiyası davam edir. Partiyanın qərargahından redaksiyamıza verilən məlumatda bildirilir ki, aprel ayının əvvəllərindən Yeni Azərbaycan Partiyasının könüllüləri Bakının Nərimanov, Nəsimi, Yasamal, Xətai, Xəzər və digər rayonlarında yaşayan aztəminatlı, tənha, köməyə ehtiyacı olan yaşlı, ahıl insanlara ərzaq yardımı paylayırlar. Qürurverici haldır ki, Azərbaycan Prezidentinin tapşırığına cavab olaraq könüllülərə dəstək kimi bir çox gənclər fərdi qaydada bu aksiyada həvəslə iştirak edir, tənha qoca və kimsəsizlərin evdə olması üçün əllərindən gələni əsirgəmirlər. Belə gənclərdən biri də Nəsimi rayon sakini, Yeni Azərbaycan Partiyasının üzvü, 25 yaşlı İlyas Məmmədovdur.

Ölkə başçısının göstərişləri çərçivəsində Nazirlər Kabineti yanında Operativ Qərargah respublikada koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədi ilə 65 yaşdan yuxarı olan vətəndaşların evdən küçəyə çıxmalarına qadağa tətbiq edəndən İlyas yaşadığı əraziyə yaxın S. Rəhimov küçəsi 197, mənzil 26-da tənha yaşayan Nurcahan Babayevaya lazımi kömək və yardım edir. 50 ildən artıq Nəsimi rayonundakı 38 nömrəli uşaq bağçasında tərbiyəçi işləmiş 75 yaşlı Nurcahan nənə deyir ki, bir ayın söhbətidir, xəstələnmişdim, bunu qonşulardan eşidən İlyas mənzilimin qapısını döydü, evimə gəlib əhvalımla maraqlandı, "bəlkə həkim çağırım?" - dedi. Söylədim ki, yox, həkim səhər tezdən gəlmişdi, iynə-dərman yazıb getdi. Biləndə ki, günortadan xeyli keçməsinə baxmayaraq, dava-dərmanı ala bilməmişəm, o, etiraz etsəm də, resepti götürüb aptekə getdi. Gələndə gördüm ki, qonşuluqda yaşayan tibb bacısını da özü ilə gətirib. Allah belə gəncləri tənha və kimsəsizlərin əlindən tutmağa yönəldən ölkə başçısının köməyində olsun! İlyas o vaxtdan mənim bütün qayğılarımı çəkir. Onun əziyyətinə görə narahat olduğumu görəndə, deyir ki, ağsaqqalın-ağbirçəyin qulluğunda durmaq dədə-babalardan qalma adətdir. Digər tərəfdən, xalqımızın hər cür əziyyətini çəkən, dünyanın bu ağır günlərində vətəndaşların qayğısında olan Prezidentimizin tövsiyələrinə, tapşırıqlarına əməl etmək biz gənclərin müqəddəs borcudur.

Nurcahan nənə ilə söhbətdən o da məlum oldu ki, karantin rejimi başlayandan İlyas nəinki ona, yaxından tanıdığı, Nigar Rəfibəyli küçəsi, bina 25-də tənha yaşayan geofizika elmləri doktoru, professor, əməkdar elm xadimi Şahin Balakişibəyliyə, digər tənha Təranə Hacıyevaya da lazımi kömək göstərir, onların dükan-bazar işlərini, digər zəruri tələbatlarını yerinə yetirir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

◆ Müəllifi İlham Əliyevdir

# Dövlət idarəçiliyi islahatlarının "Yüksəliş" mərhələsi

Azərbaycanda böyük bir proses başlayıb. Gənc və dinamik kadrlar idarəetməyə gətirilir. Yerli icra hakimiyyəti orqanlarından tutmuş mərkəzi icra strukturlarına qədər hər yerdə, sadəcə yuxarıdan göstəriş gözləyən dövlət məmurlarını müstəqil qərarvermə qabiliyyəti olan, təşəbbüskarlığı ilə seçilən nəsil əvəz edir. Dövlət başçısı İlham Əliyevin çağırışından sonra yaşlı nəslin estafeti yeni nəslə təhvil verməsi prosesi sürətlənib. Bu proses ölkədə başqa bir məsələni aktuallaşdırıb. Sürətlə boşalan yerləri kim dolduracaq? Ölkədə idarəetmə bacarığı olan kadrların sayı kifayət qədərdirmi? Kadr ehtiyatı necə formalaşdırılmalıdır?

Kadr ehtiyatının formalaşdırılmasından danışarkən ilk ağla gələn "Yüksəliş" müsabiqəsidir. Qeydiyyat prosesinə ötən ildən start verilən müsabiqənin onlayn mərhələsi artıq geridə qalıb. Çox güclü rəqabət şəraitində keçən müsabiqədə 976 iştirakçının 572 baldan yuxarı nəticə göstərməsi qoşulanların bilik və bacarıqlarının yüksək olduğunun göstəricisi kimi dəyərləndirilir. Müsabiqədə yüksək intellektual zəkası, qərar qəbuletmə bacarığı, işin bölüşdürülməsi, risk və böhranın idarə edilməsi, strateji düşünmək, komandada işləmək, kommunikasiya, dəyişikliklərin tətbiqi, həmçinin innovativliklərin tətbiqi, büdcənin idarə edilməsi kimi bacarıqları, sosial məsuliyyəti olan şəxslərə üstünlük verilməsi dövlətin idarəetməyə cəlb ediləcək kadrlardan gözləntilərini açıq ifadə edir.

Sirr deyil ki, dövlətin uğuru insanların necə idarə olunmasından birbaşa asılıdır. Bu sahənin mütəxəssislərindən biri, beynəlxalq idarəetmə üzrə ekspert Gülzar Quliyeva idarəetməni Maykl Armstronqun fikri ilə belə xarakterizə edir: "İdarəetmə bütün ehtiyatlardan, resurslardan - insanlardan, maliyyədən, məlumatdan, müxtəlif ləvazimatlardan, xidmət vasitələrindən, avadanlıq və qurğulardan istifadə edərək, onları işə salaraq, hərəkətə gətirərək, işlədərək və nəzarət edərək nailiyyətlər əldə etməkdir. İdarəçi idarəetməni həyata keçirən məsul şəxsdir və onun obyekti insandır. Bu səbəbdən də istənilən dövrün idarəçiləri insanları idarə etməyi, onları inandırmağı, arxasınca aparmağı bacarmalıdır".

G.Quliyevanın fikrincə, potensialı olan, ölkədə öz üzərində işləyən, təhsilinə və inkişafına vəsait xərcləyən insanlar, xüsusən gənclər kifayət qədərdir: "Bəzi dövlət qurumlarında, nazirliklərdə tez-tez oluram və heyətin 90 faizinin dəyişdiyini müşahidə edirəm. Bu, o nazirliklərdə, qurumlarda baş verir ki, orada qərarverən yüksək idarəçilərin özləri islahatlara hazırdır, açıqdır. Nazirliklərdə və digər dövlət qurumlarında Türkiyədə, Rusiyada, Amerikada, Fransada, Honkonqda işləyib ölkəmizə qayıdan, eləcə də ölkəmizdəki dünya üzrə nüfuzlu xarici şirkətlərdə böyük təcrübə qazanmış kadrlarla rastlaşıram. Onların yeniliyə açıqlığı, idarəetmə üzrə baxışları, dəyişikliklərə uyğunlaşma və digər bu kimi qabiliyyət, bacarıqlar üzrə fərqi auditoriyalarda hiss edilir".

## Müasir idarəçilər kimdir?

İstedadı, öz üzərində işləmə bacarığı və bir çox başqa xüsusiyyətləri olan, çoxsaylı yaradıcı, potensiallı gənclərin arasından kimin seçiləcəyinə gəlincə, bu məsələdə də dünyada qəbul edilmiş, sadəcə işəgötürənlərin yox, elə işçi kateqoriyasından olanların da ortaq fikri var. Məsələn, beynəlxalq nüfuzlu böyük dördlükdən olan "PriceWaterhouseCoopers" şirkətinin dünya üzrə keçirdiyi sorğunun cavablarından bu çox aydın görünür. Belə ki, milyonlarla insan öz rəhbərlərində görmək istədikləri keyfiyyətləri onlara təqdim edilən 250 dəyər arasından seçib və nəticələr belədir: 1. Dürüstlük, vicdanlılıq; 2. Vizyonlu olmaq; 3. Peşəkar bacarıqlar (idarə etdiyi sahədən xəbərdar olmaq); 4. İşçiləri motivasiya edə bilmək.

İşəgötürənlər də bu keyfiyyətlərə xüsusi əhəmiyyət verirlər. Məsələn, dünyanın ən varlı üçüncü adamı, Amerikada iş adamı və investor Uorren Buffet deyir ki, o, işə götürərkən namizəddə 3 amilə diqqət yetirir: bilik, təcrübə və dürüstlük. G.Quliyevanın sözlərinə görə, Uorren Buffet dürüstlüyünə əmin olmadığı şəxsin bilik və təcrübəsi ilə kifayətlənməyib: "Məncə də dürüstlük idarəçilərdə ilk əsas şərtdir. İdarəçi üçün növbəti mühüm keyfiyyət vizyonlu olmasıdır və işçilər idarəçinin onları hara apardığını dəqiq bilməlidirlər. İdarəçi vizyonu, hədəfi işçilərə izah etməlidir. Üçüncü önəmli keyfiyyət idarəetməyə gətiriləcək şəxsin başçılıq edəcəyi sahə, işlə bağlı kompetensiyalarının olması, işi bilməsidir. Dördüncü vacib məqam işçinin hədəfə gedən yolda fəaliyyətə ruhlandırılmasıdır. İdarəçi motivasiya etməyi bacarmalıdır. Nəhayət, idarəçilərin intellektual zəkası ilə yanaşı, emosional zəkası olmalıdır. İdarəçi əvvəlcə özünü tanımalı, idarə etməyi bacarmalıdır, sonra isə digərlərini - tabeliyində olanları. İdarəçiliyə iddialı şəxsləri qiymətləndirərkən meyarlar yuxarıda qeyd edilən 5 vacib qabiliyyəti müəyyən etməyə əsaslanmalıdır".

## Emosional zəka intellektual zəka qədər əhəmiyyətlidir

Bəs bu 5 vacib qabiliyyəti necə müəyyən edəcəyik? Test imtahanları buna imkan verirmi?

G.Quliyeva deyir ki, bu qabiliyyətlərin idarəçiliyə iddialı namizədlərdə yoxlanılması, müəyyən edilməsi üçün onların yalnız test imtahanlarında yüksək bal toplaması kifayət deyil: "İntellektual zəka - bilik, savad, məlumatlılıq idarəetməyə gələn şəxs üçün çox önəmlidir. XX əsrin sonlarında emosional zəkanın banisi Daniel Qolman böyük araşdırmaların nəticəsi olaraq bu qənaətə gəlib ki, dünyada 100 ballıq şkala ilə 70 bal yığan şəxsləri 100 bal yığan şəxslərin tabeliyinə veriblər. Və bir müddət sonra görüblər ki, 70 bal yığan şəxslər 100 bal yığan şəxsləri idarə edir. Bu araşdırma bir daha idarəetmə üçün emosional zəkanın əhəmiyyətini önə çəkir və onun intellektual zəka qədər əhəmiyyətli olduğunu təsdiqləyir. Emosional zəkanı müvafiq olaraq qiymətləndirmək müsahibə mərhələsində daha məqsədəuyğundur".

## Seçim mərhələsi zəmanət verir

Beləliklə, ölkəmizdə çox böyük kadr bazasının yaradılmasına ehtiyac var. Çünki başlayan kadr dəyişikliyi prosesi və idarəetməyə gətirilən yeni nəfəs bunu zəruri edir. G.Quliyeva düşünür ki, bu proses davam edəcək və ölkə üçün çox faydalı nəticələri olacaq. Ancaq nəticələrin uğurlu olması müasir idarəçilərdən asılıdır.

"Yüksəliş" müsabiqəsinin nəticələrini izlədiyini deyən ekspert hesab edir ki, sadalanan keyfiyyətlərin də olduğu bir çox bacarıqları özündə birləşdirən kadrlardan ibarət bazanın formalaşdırılması təşəbbüsünün faydalılığına həm də seçim mərhələsi zəmanət verir: "Cənubi Koreya və Sinqapur təcrübəsində belə bir nümunənin olduğunu eşitmişəm. Rusiyada da belə bir müsabiqə yaxın illərdə keçirildi. Azərbaycanda müsabiqə obyektivlik, şəffaflıq, bərabər imkanlar və maraqların toqquşmasının yolverilməzliyi prinsipləri əsasında keçirilir. Bu şərtlərlə "Yüksəliş" müsabiqəsinin şəffaf və uğurlu seçim prosesi nəticəsində baza formalaşdıra biləcəyinə inanıram".

Ekspertin fikrincə, müsabiqəyə qatılanların idarəetmə üzrə təcrübəsi çox önəmlidir: "Tələb olunan idarəetmə təcrübəsi və yaş hər hansı bir vəzifənin öhdəliklərindən asılıdır. Ümumilikdə isə beynəlxalq təcrübədə nəzəri bilik və təcrübənin vəhdəti baxımından ən məhsuldar yaş 30-55 yaş aralığında qəbul edilir".

O, təşkilata dəyər qatmış, müsbət nəticəsi olan təcrübəyə üstünlük verilməsini təklif edir: "Müsabiqədə idarəetmə üzrə minimum tələb olunan 2 il təcrübə mütləq nəticəyönümlü olmalıdır. Beləliklə, müsahibələrdə 2 il ərzində idarəetmədə başladığı və uğurla tamamladığı layihələr, rəhbərlik etdiyi sahəyə verdiyi töhfə yoxlanılmalı, nəzərə alınmalıdır. Uğurlu idarəçi o şəxsdir ki, uzun müddəti əhatə edən nəticələr əldə edib. Tutaq ki, bu il idarəetməyə gəlmisiniz və rəhbərlik etdiyiniz sahədə ilin sonunda yüksək nəticələr var. Bu uğurlu nəticələr sizin şəxsi töhfələrinizin nəticəsi olmaya bilər. Ya da idarəetmədə atdığınız bir addımdan sonra nəticələr yüksələr, amma iki il sonra bu addımın fəsadları, hətta ağır nəticələri ortaya çıxar. Məsələn, sonradan bəlli olar ki, qərar verilərkən risklər nəzərə alınmayıb. Bunun da nəticəsində şirkət qısamüddətli yaxşı nəticələr əldə etsə də, bir müddət sonra zərərə düşüb. Ona görə də təcrübə qiymətləndirilərkən konkret faktlar, rəqəmlər üzrə təhlilin nəzərdə tutulması daha məqsədəuygundur".

## Yaxşı təhsil peşəkar idarəçilik demək deyil

Beynəlxalq ekspert idarəetməyə cəlb edilənlər arasında xaricdə təhsil alanlara üstünlük verilməsini də yanlış hesab edir: "Yüksək səviyyəli təhsil idarəetmədə nəzəri biliklərin formalaşması üçün çox vacibdir. Özüm də xaricdə təhsil almışam. Lakin şəxsin sadəcə xaricdə təhsil aldığına görə, ya da xarici dil biliklərinə görə yüksək vəzifələrə təyin olunmasını yanlış hesab edirəm. Bəzi təşkilatlar yalnız xaricdə təhsil aldığına görə şəxsi yüksək vəzifəyə təyin edir və müəyyən müddətdən sonra bunun fəsadlarını görürlər. Yaxşı təhsil peşəkar idarəçilik demək deyil".

Ölkəmizdə idraəetmədə təqaüd yaşlı nəslin nümayəndələrinin həddən çox olduğunu deyən G.Quliyeva kadr islahatlarının davam edəcəyinə inanaraq düşünür ki, müsabiqənin nəticəsində 20 nəfərdən çox namizədin seçilməsi daha yaxşı olardı: "Müsabiqədə rəqabət mühitinin formalaşdığını, hələ ilk dəfə keçirilməyinə baxmayaraq, iştirakçı fəallığını nəzərə alaraq düşünürəm ki, seçilənlərin sayını artırmaq daha yaxşı olar."

Ekspert təklif edir ki, "Yüksəliş" çoxmərhələli olsun və nəticədə hazırda idarəetmədə təmsil olunan yaşlı idarəçilərin davamçıları formalaşsın. G.Quliyeva dünyada mövcud olan təcrübəyə əsaslanaraq hesab edir ki, kadrlar təyin ediləcəkləri vəzifələrə əvvəlcədən hazırlanmalıdırlar: "Şirkətlərdə sərmayə qoyulacaq kadrlar müəyyənləşdirilir. Yüksək potensiallı işçilər seçilir, daha çox təlimlərə göndərilir, onların inkişafına daha çox vəsait sərf olunur, sərmayə qoyulur. İdarəçilik asan məsələ deyil. Vəzifəyə təyin edilməzdən öncə kadrlar həmin vəzifəyə hazırlanmalıdırlar. Ona görə də düşünürəm ki, "Yüksəliş" müsabiqəsinin qəliblərinin sayını artırmaq məqsədəuyğun olar. Kadr bazası nə qədər böyük olsa, seçim də bir o qədər keyfiyyətli aparılar, kadr islahatları sürətli gedər".

Fərq yaradan, başqalarından seçilən kadrları tapmaq, ən layiqlilərinə vəsait xərcləyib yüksək vəzifələrə hazırlamağın önəmini qeyd edən ekspertin fikrincə, bu baxımdan "Yüksəliş" müsabiqəsi çox önəmli bir işi - 3 "R" (right time, right position, right person) prinsipini yerinə yetirəcək: "Zamanında vəzifələrin ən uyğun, düzgün namizədlər tərəfindən tutulmasına nail olacaq prinsip".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***





# Tarixin izi ilə





**Unikal məkan**

**Bu ilin dekabrında xalqımızın milli sərvətlərindən olan İçərişəhərin Şirvanşahlar Saray Kompleksi və Qız qalası ilə birgə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyi tamam olur.**
**Əlamətdar yubiley ili bizim üçün həm də ona görə önəmlidir ki, bu qədim şəhər UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk tarixi məkanımızdır. Bunun yüksək əhəmiyyətini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev 20 illiyin qeyd olunması haqqında xüsusi sərəncam imzalamışdır. Sərəncama əsasən bu tarixi hadisənin ildönümü ilə bağlı həm ölkə daxilində, həm də xaricdə mədəni-kütləvi tədbirlər, sərgilər, İçərişəhər haqqında müxtəlif təqdimatlar keçiriləcək.**



# Misilsiz yadigar




### Azərbaycan memarlığının parlaq nümunəsi

Ölkə başçısının sərəncamında da qeyd edildiyi kimi, İçərişəhər çoxəsrlik mədəniyyətimizin rəmzlərindəndir. Ölkəmizin orta əsrlərdə yüksək inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarı olan bu unikal məkandakı Qız qalası, Şirvanşahlar Saray Kompleksi, məscidlər, karvansaralar və digər tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir.

Tariximizə xüsusi həssaslıq göstərən Ulu Öndər Heydər Əliyev bu abidəyə hər zaman qayğı ilə yanaşırdı. İçərişəhərin mənəvi dünyamızdakı yeri və rolunu düzgün qiymətləndirərək onun qorunması üçün əhəmiyyətli addımlar atırdı. Təsadüfi deyil ki, Ulu Öndərin siyasi iradəsi ilə İçərişəhər hələ 1977-ci ildə Tarix-Memarlıq Qoruğu statusu almışdı. 1985-ci ildə isə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdi.

20 il əvvəl bu tarixi mirasın UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi isə Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə də sərvətlərimizə həssas münasibətinin, bu sahədə mövcud imkanlardan istifadə əzminin ifadəsi idi.

Hər bir azərbaycanlının qüruru olan "muzey-şəhər"in ölkəmizdəki tarixi abidələr sırasında ilk olaraq bu nüfuzlu qurumun irs siyahısına daxil edilməsi əməkdaşlığın inkişafı yönündə də görülmüş işlərin fərəh dolu məntiqi nəticəsi idi. Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu əlaqələrin inkişafında xüsusilə böyük əməyi var. Mehriban xanımın gərgin zəhməti, maddi-mənəvi irsimizin qorunması və bütün dünyada təbliği istiqamətində həyata keçirdiyi təşəbbüslər sayəsində 2007-ci ildə Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, 2019-cu ildə isə Şəki xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi də UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi.

### Müxtəlif sivilizasiyaların şahidi

Tarixi abidələr siyahıda əsasən 6 kriteriya ilə müəyyən edilib. 1-ci kriteriya abidənin möhtəşəm sənətkarlıq nümunəsi hesab edilməsidir. 2-ci kriteriya abidənin aid olduğu dövrdən başlayaraq mədəniyyətin inkişafına müəyyən təsir göstərməsidir. Yer üzündən silinmiş qədim xalqların birinə aid olan abidələr siyahının 3-cü kriteriyasını əhatə edir. 4-cü kriteriya bir neçə sivilizasiyadan keçmiş tarixi abidələrə şamil olunur. 5-ci kriteriyaya daxil edilmiş abidələr isə müxtəlif mədəniyyətlərin bir yerdə cəmlənməsi nəticəsində beynəlmiləl mədəniyyəti formalaşdıran tarixi incilərdir. 6-cı kriteriya isə digər abidələrdən köklü şəkildə fərqlənən, dünya mədəniyyəti üçün əvəzolunmaz tarixi və mədəni önəm daşıyan abidələrə verilən kriteriyadır. Qeyd edək ki, Şirvanşahlar Saray Kompleksi və Qız qalası ilə birgə İçərişəhər UNESKO-nun Ümumdünya İrs Siyahısına 4-cü kriteriya üzrə daxil edilib. Bu da İçərişəhərin bir neçə sivilizasiyaya şahid olmuş unikal tarixi məkan statusundan irəli gəlir.

### Ruhumuzun şəhəri

Onu ruhumuzun paytaxtı da adlandıra bilərik. İçərişəhər keçmişə sevgimizin simvolu, tarixi yaddaşımızın canlı salnaməsidir. Doğma Bakının ən dəyərli incisidir. Açıq səma altında muzey kimi fəaliyyət göstərən İçərişəhər 22 hektar ərazidə amfiteatr üslubunda inşa edilib. Onun unikallığı həm də şəhərin daxili məhəlli strukturlarındadır. Arxeoloji baxımdan sona qədər öyrənilməsi mümkün olmadığına görə, buranın yaşayış məntəqəsi, yoxsa istehkam kimi inşa olunduğu bəlli deyil. Qazıntılar zamanı tapılmış, eramızdan əvvəl III-I əsrlərə aid küpə, eramızdan əvvəl IV-I əsrlərə aid saxsı qab qırıqları, dəmir ox ucluqları, dəmir dövrünə aid gildən qadın fiquru və antik dövrə aid sütun altlıqları İçərişəhərin şəhər kimi formalaşma dövrünü ən geci antik dövrlə eyniləşdirməyə imkan verir.

Bakı liman şəhəri kimi mövcud idi. İçərişəhər ərazisində sənətkarlıq və ticarət geniş inkişaf etmişdi. Güclü zəlzələ nəticəsində Şamaxı şəhərinin dağılmasından sonra Azərbaycanın şimal-şərqində yaranmış ilkin feodal dövləti olan Şirvanşahlar dövləti Bakıya köçür. Bu köçürmədən sonra İçərişəhərin həyatında dönüş dövrü başlayır. Şirvanşahların hakimiyyəti dövründə Bakıda çoxlu inşaat işləri həyata keçirilir və şəhər inkişaf edir. Qala divarları inşa edilməklə şəhərin müdafiə sistemi gücləndirilir. XV əsrdə Şirvanşahların iqamətgahının tikintisinin başa çatmasından sonra şəhərin ictimai-siyasi və mədəni mərkəz kimi rolu xeyli artır. Ümumilikdə tədqiqatçılara görə orta əsrlər Bakısının ən yüksək inkişaf mərhələsi XV əsrə düşür.

XIX əsrin sonları-XX əsrin əvvəlləri Bakıda neft bumunun yaşanmasından sonra isə şəhər genişlənir, insanlar İçərişəhər divarlarından kənarda da sıx məskunlaşmağa başlayır. Məhz "İçərişəhər" anlayışı da bayır şəhərin formalaşmasından sonra yaranır. 1952-1957-ci illərdə İçərişəhərin qala divarları ilk dəfə bərpa edilir. Ötən əsrin 70-80-ci illərində bu tarixi məkanın statusu ilə bağlı müvafiq addımlar atılır.

### İçərişəhərin yeni həyatı

Tarixi abidə də insan kimidir. Baxımsız qoysan, müxtəlif məqsədlərlə dağıdılıb tar-mar edilməsinə göz yumsan, zamanla məhv olub sıradan çıxacaq. Amma qayğı göstərsən, qəlbinin sevgisini verib başının tacı etsən, əsrlərin o üzündən gələn bütün gözəlliklərini göz önündə sərgiləyəcək. Bu mənada Prezident İlham Əliyevin diqqət və qayğısı, Mehriban xanım Əliyevanın himayəsi İçərişəhərə yeni həyat verdi. Azərbaycan Prezidentinin İçərişəhərin qorunması məqsədini əsas tutan 10 fevral 2005-ci il tarixli sərəncamı açıq səma altındakı bu muzey-şəhəri layiq olduğu görkəminə, abadlığına, səliqə-sahmanına gətirdi. İçərişəhər tarixlə müasirliyin harmoniyasını, milli-mənəvi dəyərlərimizin ruhunu özündə əks etdirən möhtəşəm mənzərə kimi bütün gözəlliklərini gözlərimiz önündə açdı.

Dövlət rəhbərinin müvafiq sərəncamı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi yaradıldı. Belə bir qurumun yaradılmasında əsas məqsəd qədim şəhərdə abidələrin və bütövlükdə memarlıq-şəhərsalma kompleksinin lazımi səviyyədə qorunub saxlanmasının və gələcək nəsillərə çatdırılması üçün özündə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini birləşdirən unikal idarəetmə sisteminin təşkil olunması idi. Və bu niyyət qısa zamanda özünü doğrultdu. Qoruğun mədəni turizm potensialının artırılması məqsədilə onun mədəniyyət və incəsənət mərkəzinə çevrilməsi istiqamətində çoxsaylı tədbirlər görüldü. Burada yeni muzey ekspozisiyaları açıldı. Ənənəvi incəsənət və sənətkarlığın inkişafının dəstəklənməsi istiqamətində addımlar atıldı.

### Davam edən canlı tarix

İçərişəhərin unikallığı qədim tarixi abidələri, yaşayış massivləri, özünəməxsus infrastrukturu ilə yanaşı, həm də canlı tarixin burada yaşayan insanlarla yenə davam etməsindədir. Bu məkanda 1300-dən çox ailə yaşayır. Bu insanlar qədim şəhərin ruhunu, milli adət-ənənələrini nəsildən-nəslə ötürür, milli-mənəvi dəyərlərimiz də tarix-mədəniyyət abidələrimiz kimi qorunub saxlanılır. İçərişəhərə daxil olduğun andan bu əsrarəngiz məkanın sirli aurasını fərq edirsən. Onun müsbət enerjisi adamın ürəyinə dolur. Küçələr, dalanlar sakitliyin, məkanla ruhun harmoniyasının verdiyi hüzur içində insana xoş bir hekayət danışır. Hər addımında qədimliyin və müasirliyin misilsiz vəhdətindən doya bilmirsən.

Bu 20 illik yubiley İçərişəhər salnaməsinin daha bir maraqlı səhifəsi kimi yaddaşlara işıq salacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

**Danışan tariximiz**

# Mart soyqırımında Bakıda dağıdılan memarlıq abidələri

**1918-ci il martın 30-da şəhərdə atəş açıldı. Bu, erməni daşnak-rus bolşevik birləşmələrinin Bakı Sovetinin rəhbərliyi altında törədəcəkləri dəhşətli qırğınların, böyük faciələrin ilk səsi, sədası oldu. Bununla da Bakının və onun qədim sakinlərinin qara günləri başladı. Sonrakı günün səhərisi erməni daşnak-rus bolşevik birləşmələri azərbaycanlıların yaşadıqları məhəllələrə, evlərə hücuma keçdilər. Çoxdan planlaşdırılan soyqırımı aktı xüsusi amansızlıqla həyata keçirilirdi. Günahsız insanlara işgəncələr verilir, diri-diri yandırılır, evlərinə od vururdular.**





Düşmənin hədəfində yalnız Bakının müsəlman əhalisi deyildi. Mart qırğınlarında həm də bu şəhərin maddi-mədəni sərvətləri də talanırdı. Ermənilər qədim, gözəl Bakının sinəsinə dağ çəkir, mənəvi dəyəri böyük, gözoxşayan, hərəsi bir tarix olan tikililərini dağıdırdılar.

### Edamına qərar verilmiş "İsmailiyyə"

İndi bu barədə tarixi sənədlər, həmin faciəli günlərdə çəkilmiş fotoşəkillər "danışır". Hadisələrin tədqiqinə hələ yaralar isti ikən, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanıldı. Bu məqsədlə Nazirlər Şurası 1918-ci il iyulun 15-də Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiyanın o zaman topladığı çoxsaylı materiallar daşnak-bolşevik birləşmələrinin soyqırımı törətdiklərini təsdiqləyən təkzibedilməz faktlardır.

Sənədlərdən birində 1918-ci ildə Bakıda azərbaycanlılara qarşı aparılan soyqırımda başı bəlalar çəkən "İsmailiyyə"dən bəhs edilir. Bildirilir ki, bir dəstə daşnak əsgəri Şaumyanın adamları ilə "Cəmiyyəti-xeyriyyə"nin qarşısına gəlib o binayi-müqəddəsə, o möhtəşəm imarətə, o müəzzəm binaya xainanə bir surətdə od vurdular, onu yandırdılar.

Seyid Hüseyn xain düşmənlərin, erməni milli polkunun "İsmailiyyə"ni işğal etdiyini yazırdı: "...oradakı müxtəlif təşkilatların kağız-dəftərlərini qarışdırır, bəzi şeylər arayırdılar. Bu qədər müxtəlif təşkilatlardan bir kərəlik xilas olmaq, daha doğrusu, xalqda doğan muxtariyyət fikrini əbədən basmaq üçün bu fikrə pərvəriş verən İsmailiyyənin edamına qərar verilmiş, ona düşmən əli ilə od vurulmuşdu".

Bazar və Qubernski küçələrinin tinində yerləşən "İsmailiyyə"yə ermənilər elə zərər vurdular ki, bu möhtəşəm tikili uçmaq təhlükəsi ilə üzləşdi. 1919-cu ildə binanı bu səbəbdən sökmək istədilər. Seyid Hüseyn həyəcanla yazırdı: "Ey bakılı qardaş, ey azərbaycanlı vətəndaş, niyə dayanıb baxırsan? İsmailiyyənin, hər vaxt böyük salonunda öz gələcəyin üçün gün ağladığın İsmailiyyənin qarşısına gəl! Onu səndən ayırırlar! Onu lüzumsuz bir meyit kimi dəfn edirlər. Həm də sənin gözünün qabağında dəfn edirlər!"

Yaxşı ki, o zaman "İsmailiyyə"ni məhv etmədilər. 1921-ci il mayın 21-də binanın təmirinə başlanıldı...

### Yandırılan, dağıdılan məscidlər...

Müsəlman əhalisinə qarşı soyqırıma başlayan daşnak-bolşevik birləşmələri martın 31-də "İsmailiyyə" binası ilə yanaşı, "Kaspi" qəzetinin redaksiyasını və mətbəəsini, mətbəədə Qurani-Kərimin yenicə çap olunmuş 5 min nüsxəsini yandırıb külə döndərdilər. Uzaqvuran toplarla Təzəpir məscidini atəşə tutdular. Tədqiqatçı Anar İsgəndərov yazır ki, Erməni Milli Şurası, "Daşnaksütyun" rəhbərliyi və Bakı Soveti Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin oynadığı rolu yaxşı bilirdilər: "Belə ki, türk-müsəlman əhalisinə qarşı soyqırıma əvvəldən hazırlıq görən erməni-daşnak qüvvələri şəhərdə şayiə yaydılar ki, guya din xadimlərinin fitvası ilə müsəlmanlar rus millətindən olanları qırır, evlərini yandırırlar. Ermənilər rus matroslarını bu şayiəyə inandıra bildilər. Şayiəyə inanan rus matrosları gəmilərdən Bakının müsəlman məhəllələrinə bir neçə top atəşi açdılar. Çəmbərəkənddə bir neçə tikili, o cümlədən məktəb, hərbi xəstəxana və yetim uşaqların evi top atəşi ilə dağıdıldı. Ermənilər rus matroslarını Təzəpir məscidini top atəşinə tutmağa çağırırdılar. Matroslardan biri gəmidəki uzaqvuran topla Təzəpiri atəşə tutmağa başladı. Birinci top mərmisi Təzəpirin həyətində partladı. Məscidin həyətində çaxnaşma başlayanda din xadimlərindən biri adamları sakitləşdirib, ağ bayraq götürüb məscidin damına sancmaq üçün yuxarıya qalxdı. İkinci top mərmisi məscidin lap qabağına düşdü, ətrafa səpələnən qəlpələrdən məscidin pəncərə şüşələri çilik-çilik olub yerə töküldü. Üçüncü mərmi isə məscidin yan divarına dəyərək onu möhkəm zədələdi. Məscidin həyəti xarabalığı xatırladırdı. Matroslar şəhərdə ruslara qarşı heç bir qırğının törədilmədiyini yəqin edəndən sonra top atəşini dayandırdılar".

Fövqəladə İstintaq Komissiyasının sənədlərində Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyantsın Təzəpir məscidinə pənah aparmış əliyalın azərbaycanlı əhaliyə qarşı hər cür zorakılıqlar etməyi, hətta lazım gələrsə, məscidi belə yandırmağı əmr etdiyi qeyd olunur. Kinli, qəddar daşnaklar bu məkrli planı həyata keçirə bilmədilər...

Həmin faciəli günlərdə Şirvanşahlar sarayı da ziyan gördü. Ermənilərin atdığı top mərmiləri Şah məscidinin minarəsini zədələdi. Şirvanşahlar Sarayı Kompleksinə daxil olan Keyqubad məscidi isə məhv edildi.

Şirvanşahlar Sarayı Kompleksinin yuxarı həyətində, Şirvanşahlar sarayı binasının arxasında, Seyid Yəhya Bakuvi türbəsinin qarşısında yerləşən bu tikilinin XIV əsrin yadigarı olduğu bildirilir. Tədqiqatçılar məscidin sifarişçisinin - 1317-1343-cü illərdə hakimiyyətdə olmuş Şirvanşah I Keyqubadın adı ilə adlandırıldığını qeyd edirlər. Bu tarixi məscidi ermənilər 1918-ci ildə yandırdılar.

Mart soyqırımı zamanı daşnak-bolşevik birləşmələri on iki mindən çox dinc əhalisini qətlə yetirdikləri, nadir, milli memarlıq nümunələrini, məktəblərini, xəstəxanalarını, məscid və digər abidələrini dağıtdıqları Bakının xeyli hissəsini xarabalığa çevirdilər.

Azərbaycanlıların soyqırımı Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər yerlərdə də eyni qəddarlıqla həyata keçirildi, dinc əhali kütləvi şəkildə məhv edildi, kəndlər yandırıldı, tikililər, milli abidələr dağıdıldı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Maddi-mədəni sərvətimiz**

# Zamanların yaddaşından soraq verən sərvət

**Abidələr, qalalar - tarixin yaddaşında daş salnaməyə çevrilən xəzinə min illərdir ki, dövr və zamanın, dəyişilən hakimiyyətlərin, quruluş və müharibələrin qurbanlarına çevrilir, itib-batır, yer üzündən silinir.**



Ona görə də 18 aprel (1984-cü ildən) Tarixi abidələrin mühafizəsi günü kimi qeyd olunur. UNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş bu qərarının əsas məqsədi dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

Hər il aprelin 18-də bu əlamətdar günlə bağlı tədbirlər, konfranslar, "dəyirmi masa"lar keçirilir, fərqli mövzular seçilir.

Azərbaycan 2002-ci ildə Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunub. Nazirlər Kabinetinin 2011-ci il 2 avqust tarixli qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında Qobustan qoruğunda 1067 sayda dünya əhəmiyyətli, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda 3 dünya, 93 ölkə, 2568 yerli əhəmiyyətli, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda 7 ölkə, 234 yerli, "Nardaran" Tarix-Mədəniyyət Qoruğunda 1 dünya, 5 ölkə, 7 yerli, "Atəşgah" Tarix-Memarlıq Qoruğunda 1 dünya əhəmiyyətli tarixi abidə qeydə alınıb. Azərbaycandakı abidələrin bəziləri UNESKO-nun İrs siyahısına əlavə edilib ki, bu da onların beynəlxalq səviyyədə mühafizəsi baxımdan çox əhəmiyyətlidir.

Tarixi yadigarların bir çoxu zamanların səmim küləyinə tab gətirməyərək məhv olub gedib, qalanlar isə bir sıra təbii və süni problemlərin qurbanlarına çevrilib. Azərbaycanın mədəni irsini hədəf seçən ermənilər işğal etdiyi torpaqlardakı maddi-mədəniyyət abidələrimizi saxtalaşdıraraq erməniləşdirməyə çalışmışlar. Belə ki, ələ keçirilən ərazilərdə ermənilər 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırmışlar. Nadir əhəmiyyətə malik 40 min muzey sərvəti və eksponat talan olunmuş, 44 məbəd və 18 məscid dağıdılmışdır. Yandırılan 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və nadir incilərdən sayılan əlyazmaların külü göylərə sovrulmuşdur.

Dağlıq Qarabağ ərazisində və ətraf rayonlarda Azərbaycanın milli-mədəniyyət ocaqlarına erməni təcavüzkarları tərəfindən vurulan ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki zaman dəyişmiş (keçmiş sovetlər dönəmindəki dəyərlər artıq öz əhəmiyyətini itirdiyi üçün mal-mülkün də qiymətləri maya dəyərinə uyğunlaşdırılmışdır), qiymətlər yenidən formalaşmışdır. Eyni zamanda talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələri hesab olunmuşdur.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

**Daş yaddaşımız**

# UNESKO-nun Ümumdünya İrs Siyahısına düşənlər

**3 iyun 1992-ci ildə Azərbaycan UNESKO-ya üzv qəbul edilib. 1996-cı ildə isə UNESKO ilə Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Ümumdünya İrs Komitəsinin ötən il iyulun 4-də keçirilən 43-cü sessiyasında bildirildi ki, hazırda siyahıda 134 ölkədən ümumilikdə 1092 abidə yer alıb. Həmin siyahıda Azərbaycan abidələrinin də adı var. UNESKO-nun Ümumdünya İrs Siyahısına salınan tarixi abidələrimiz xalqımızın maddi-mədəni sərvəti olduğu üçün çox dəyərlidir.**




### Qobustan Dövlət Tarixi-Bədii Qoruğu

Tək Azərbaycan yox, eləcə də dünya tarixində ilk insan məskənlərindən olan Qobustanın bu ali siyahıya salınması üçün Azərbaycan bir neçə dəfə UNESKO-ya müraciət etmişdir. 2004-cü ildə və ondan sonra qurumun xüsusi ekspertlər qrupu Azərbaycana gələrək Qobustanla tanış oldular.

Təbii ki, ekspertlər qrupunun müsbət qiymətini alan Qobustan 2007-ci ildə UNESKO-nun Ümumdünya İrsinin əsas siyahısına salındı. Bir neçə tarixi abidələrimiz də var ki, onlar beynəlxalq qurumun əsas yox, müvəqqəti namizədlər siyahısındadır. Əsas irs siyahısına salınması üçün isə Azərbaycan tərəfindən müraciətlər edilib. İnanırıq ki, həmin abidələr ali qurumun ikinci yox, birinci dərəcəli siyahısında da qərar tutacaq.



### Atəşgah

Adı UNESKO-nun Ümumdünya İrs Siyahısına 1998-ci ildə əlavə edilib. Yaponiyalı K.Matsuronun baş direktor seçildiyi konfransda həm orta əsr Azərbaycan tarixinin, eləcə də Uzaq Şərqin belə əsas tarixi obyektlərindən sayılan Atəşgah (Abşeron yarımadasının Suraxanı rayonu), həm də Naxçıvan MR-da olan abidələr ("Gülüstan"qalası, Möminə Xatun, Yusif ibn Küseyr türbələri) müvəqqəti namizədlər siyahısına salındı.

*"Azərbaycan"*

# Bir də uşaqlar var...

## Dünyanı yasa bürüyən bu bəlanı onlara necə izah edək?

*Bəli, bir də uşaqlar var...*
*Gözlərində min-bir cavabsız sual, saysız niyələrin əsiri...*
*Səsləri küçələrsiz, gülüşləri bağçalarsız, sevincləri dostlarıyla paylaşımsız...*
*Dünyaları qorxulu, yaşamları oyunsuz, nağılları almasız...*
*Milyonlarla qüssəli, pərişan uşaq.*



### İstəklərinin qarşısına koronavirus adlı bir bəla sədd çəkib

İndi uşaqların dünyasına kabus çöküb. Küçələrdə, parklarda, bağlarda azadə dolaşmaq, həmyaşıdlarıyla qaçmaq, oynamaq istəyirlər, fəqət...

Bağçaya, məktəbə, sevimli müəllimlərinin görüşünə tələsirlər, lakin...

Onların bu istəklərinin qarşısına koronavirus adlı bir bəla sədd çəkib...

Qəlblərinə qəm-kədər hökm etmək istəyir...

Bilir ki, dünyanın var olması məhz uşaqların sevinci üzərində bərqərar olub.

### Həqiqətləri başa düşəcəkləri sadə dildə izah etmək lazımdır

Bəs uşaqları koronavirusun çəngindən necə alaq, sevinc dünyalarına qara bulud kimi çökən bu bəladan necə qoruyaq? Onlara necə dəstək olaq?

Psixoterapevt Orxan Fərəcli deyir ki, uşaqlar bu karantin dövrünün ən həssas təbəqəsidir. Onlara həqiqi məlumatları başa düşəcəkləri sadə dildə izah etmək lazımdır: "Qətiyyən yalan informasiya verməyin. Məktəbə getməməklə evdə qalaraq əslində, bir qəhrəmanlıq etdiklərini, nənə-babalarını qoruduqlarını izah edin. Əmin olun ki, bu, onlara hədsiz maraqlı gələcək. Çoxdandır görmədiyi bağça və sinif yoldaşları ilə görüntülü danışmaqlarına şərait yaradın. Uzun müddət televizor qarşısında vaxt keçirməmələrinə nəzarət edin".

### Böyüklərdən fərqli olaraq...

Uşaq və gənclərin sosial reabilitasiya mərkəzinin psixoloqu Asəf Kərimov bildirir ki, hazırkı dövrdə koronavirus pandemiyası ilə bağlı insanların karantin rejimində yaşaması onlarda bir çox mənfi emosional psixoloji hal və vəziyyətlərə gətirib çıxarır.

Bu, xüsusilə psixoloji müdafiə mexanizmi hələ tam formalaşmamış uşaq və yeniyetmələr arasında özünü daha qabarıq göstərir: "Böyüklərdən fərqli olaraq onlar daha çox çətin vəziyyətlərdə qalırlar. Uşaqlara, xüsusən məktəbəqədər və kiçik məktəb yaşında olan uşaqlara xəstəliklə bağlı informasiya vermək lazımdır. Onların maarifləndirilməsi üçün gərək fantaziyamızı işə salaq".

A. Kərimov söyləyir ki, ilk növbədə məktəbəqədər və kiçik məktəb yaşında olan uşaqlara insan orqanizmi ilə bağlı bilikləri vermək lazımdır. Uşaqlar üçün onların yaş xüsusiyyətləri ilə bağlı kitabçalar var. Kiçikyaşlı uşaqlarda ətrafı tanımağa maraq və fəaliyyət özünü göstərdiyi andan valideynlər bu barədə məlumatı əldə etməkdə onlara yardım etməlidirlər. Xarici və daxili orqanların tanınması ilə bağlı informasiya şəkilləri, cizgi filmləri, öyrədici çarxları tapmaq elə də çətin deyil (O cümlədən karantində olan zaman internet vasitəsilə.).

### Kiçikyaşlı uşaqlara ölüm haqqında danışmaq tezdir

Psixoloq uşaqlara sağlam və xəstə orqanizm-bədənlə əlaqədar məlumatlar da verilməli olduğunu qeyd edir və bunu onlara necə izah etməyin yollarını da göstərir. Bu zaman xəstəlik törədicisi olan mikroblar, viruslarla bağlı informasiya nağıllaşdırılmış formada (mənfi obrazlar, gözəgörünməz düşmən ordusu və ya cadugər, div) verilə bilər. Mikrob və virusların hansı formada insana keçməsi ilə bağlı nağıllar danışmaq olar. Onların qarşısını almaq üçün müsbət obrazlar rolunda vitaminlər, dərmanlar, su damcıları, həkimlər ordusu, maska və s. çıxış etməlidir. Sonda mütləq şəkildə nağılda müsbət qəhrəmanlar qalib gəlir. Gözəgörünməz düşmən ordusu isə məğlub olur. Kiçikyaşlı uşaqlara ölüm haqqında danışmaq tezdir. Buna görə də onlara yalnız bəzi əlamətlər haqqında danışmaq lazımdır. Öskürək, qızdırma, boğaz ağrısı və s.

### Bina evində yaşayan uşaqlar isə...

Karantin dövründə əsas problem uşaqların heç bir yerə çıxmaması və ev şəraitində monoton həyat tərzinin necə aradan qaldırılmasıdır. Mütəxəssis deyir ki, onlarla oynamaq, birgə şəkillər çəkmək, cizgi filminə baxmaq, kiçik teatr düzəltmək çox önəmlidir. Həyət evində yaşayanlar təmiz havaya çıxa, yəni təcrid edilmiş həyətdə gəzə və oynaya bilərlər. Lakin bina evində bu imkan olmadığı üçün gün ərzində heç olmasa bir dəfə eyvana çıxmaq və hava almaq, gün işığına baxmaq lazımdır. Onlayn dərslərdə iştirak etmək, müəllimi və digər həmyaşıdları ilə internet vasitəsi ilə ünsiyyət yaratmaq lazımdır.

### Yeniyetmələrin həmyaşıdları ilə ünsiyyət qurmalarına imkan yaratmaq lazımdır

Bu dövr xüsusilə yeniyetmələr üçün çətindir. Məktəblərin bağlanması, tədbirlərin ləğv olunması, dostlarla ünsiyyətin kəsilməsi onlarda bir çox psixoloji problemlərə gətirib çıxarır. Yeniyetmələr koronavirusun dünyanı bürüməsi ilə bağlı tətbiq olunan karantin rejimlərinə görə üzləşdikləri həyati dəyişikliklər baxımından özlərini narahat, təcrid olunmuş və məyus hiss edirlər.

A.Kərimov yuxarıda sadalanan neqativ halların olmaması üçün yeniyetmələrə də tövsiyələrini bildirir: "Yeniyetmələrin xüsusilə hazırkı dövrdə həmyaşıdları ilə ünsiyyət qurmalarına imkan yaratmaq lazımdır. Adi günlərdən fərqli olaraq mobil telefonla, sosial şəbəkələrlə əlaqələrinə bir qədər daha çox müddət ayırmaq gərəkdir. Eyni zamanda onlar öz yaradıcılıqlarını, əl işlərini hazırlayıb sosial şəbəkələrdə paylaşa, qruplar yaradıb ünsiyyət qura, bir-birilərinə dəstək ola bilərlər. Valideynlərin onlarla daha çox söhbət etmək, nələrisə müzakirə etmək imkanı yaranıb, bundan istifadə etmək lazımdır".

### Övladınızın özünü əmin, təhlükəsiz hiss etməsinə şərait yaradın

Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Uşaqlara koronavirusu necə anladaq" adlı məlumatlandırıcı yazısında isə qeyd olunur ki, uşaqlara ehtiyac duyulandan artıq informasiya verməyin, sadəcə onun suallarını cavablandırın və özünü əmin, təhlükəsiz hiss etməsinə şərait yaradın.

Övladınız cavabını bilmədiyiniz sual verirsə, yaşına uyğun olaraq onu birlikdə axtarmağı təklif edin. Etibarlı informasiya mənbələrindən (https://cabmin.gov.-az/az/category/10/, https://www.who.int/ vəs.) məlumatları oxumağın yolunu göstərin və onları birlikdə oxuyun. Onlarla danışarkən səsinizi sakit və pozitiv tonda saxlamağa çalışın. Söhbətinizlə onlara rahatlıq və əminlik verməlisiniz ki, narahat olmasınlar.

Uşaqlara həkimlərin və xəstəxanaların insanları sağaltdığına, alimlərin vaksin hazırlamaq üçün təhqiqatlar apardığına, tezliklə vaksinin tapılacağına inandırın. Bu söhbətlər onlarda həyatda çətin, stressli zamanların bir müddət sonra keçəcəyinə və normal həyatın qayıdacağına inam yaradır, həyata qarşı davamiyyəti formalaşdırır.

Çalışın bu karantin dövründən ən faydalı şəkildə istifadə edəsiniz - övladlarınızla gözəl vaxt keçirin, maraqlı söhbətlər, pozitiv əyləncələr təşkil edin və mümkün qədər evdə qalın.

Uşaq psixologiyası incə bir tel üzərində qurulub. Hansısa yanlış informasiya, diqqətsiz davranış, naşı toxunuş tar-mar olmasına, düzəldilməsi çətin problemlərə səbəb olar. Buna görə də bütün dünyanın yaşadığı bu qorxulu və həssas dövrdə xüsusilə uşaqlara diqqət göstərmək, bacardığımız qədər onları bu təhlükədən uzaq tutmaq ən ümdə vəzifəmiz olmalıdır.

Çünki elə gələcək də uşaqlarla gələcək...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Respublikanın avtomobil yollarında xüsusi karantin rejimini pozanların sayı açıqlanıb



Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar aprelin 17-si saat 00:00-dan aprelin 18-i saat 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayıb. İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə aprelin 17-si saat 00:00-dan aprelin 18-i saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 2185 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə aprelin 1-dən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 27 min 587 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb olunub.

# Xüsusi karantin rejimi qaydalarını pozmaq üçün saxta arayışlar satan şirkət rəhbəri saxlanılıb

Ölkə ərazisində elan edilən xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilmiş növbəti uğurlu əməliyyat nəticəsində Ağcabədi rayon sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Oktay Quliyev xüsusi karantin rejimi ilə bağlı polis postlarına təqdim olunması və sərbəst hərəkət etmək istəyən ayrı-ayrı şəxslərə rəhbəri olduğu "AZİNTELLEKTSERVİS LTD" və "TQİK-A" MMC-lərin saxta arayışlarının hər birini 100-200 manata satarkən saxlanılıb.

Araşdırma zamanı müəyyən olunub ki, adıçəkilən şəxs xüsusi karantin rejiminin qaydalarını pozaraq sərbəst hərəkət etmək üçün 10-a yaxın vətəndaşın saxta sənədlər əsasında "icaze.e-gov.az" portalında qeydiyyatdan keçirib. Bununla da Oktay Quliyev saxta sənəd satdığı şəxslərin xüsusi karantin qaydalarının tələblərini pozaraq sərbəst hərəkət etməsinə şərait yaradıb. Saxlanılan şəxsə məxsus paytaxt ərazisində yerləşən ofisə baxış zamanı eyni məqsədlə hazırlanmış saxta arayışlar, boş blanklar, möhürlər və digər iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar aşkar olunaraq götürülüb.

Qeyd edilən faktla bağlı Baş İdarədə zəruri istintaq hərəkətləri və əməliyyat tədbirləri davam etdirilir.

Daxili İşlər Nazirliyi bir daha vətəndaşlardan koronavirus pandemiyası ilə mübarizədə ölkə ərazisində elan edilən xüsusi karantin rejiminə əməl etməyi tələb edir. Əks halda qaydaları pozan şəxslərə qarşı qanunvericilikdə nəzərdə tutulan qaydada ciddi cəza tədbirləri görüləcək.

# "Azercell" "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nin təşkilinə dəstək verib

Ölkənin lider mobil operatoru "Azercell" koronovirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərə töhvə verməkdə davam edir. Şirkət bu dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi və Daxili İşlər Nazirliyinin birgə ərsəyə gətirdiyi "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" çərçivəsində vətəndaşların sorğularının operativ cavablandırmasına dəstək olub.

Müştərilərinin rahatlığını hər zaman prioritet hesab edən "Azercell", qısa müddət ərzində abunəçiləri üçün SMS icazə sistemini aktiv edib. Beləliklə, "Azercell" abunəçiləri 8103 nömrəsi vasitəsilə bu xidmətdən ödənişsiz yararlana bilirlər. Xatırladaq ki, tətbiq edilən sosial izolyasiya tədbirlərilə əlaqədar, vətəndaşlar yaşayış yerlərini tərk etmək üçün 8103 nömrəsinə icazənin məqsədini bildirən xüsusi kodu, şəxsiyyət vəsiqələrinin seriya və nömrəsini göndərməlidir.

SMS icazə sisteminin istifadəyə verildiyi ilk günlərin həm vətəndaşlar, həm də Elektron Hökumətin İnkişafı Mərkəzi üçün ən gərgin zaman olduğunu nəzərə alaraq, "Azercell"in Telefon Mərkəzi xüsusi iş rejimində çalışıb. "Azercell" "ASAN xidmət"in müvafiq sisteminə (9108) dəstək göstərərək SMS icazə sistemindən istifadə qaydaları ilə əlaqədar daxil olan zəngləri və sualları operativ şəkildə cavablandırıb. Həmçinin xidmətdən istifadə zamanı yarana biləcək sualları öncədən cavablandırmaq məqsədilə "Azercell" şirkəti tərəfindən xüsusi informativ video təlimatlar hazırlanaraq, rəsmi Sosial Media hesablarında paylaşılıb.

Bundan əlavə, "Azercell" Elektron Hökumətin İnkişafı Mərkəzinə Mi-fi cihazları, limitsiz internet paketləri və limitsiz danışıq üçün xüsusi nömrələr hədiyyə etməklə, qurumu kəsintisiz rabitə xidmətləri ilə təmin edib.

Qeyd edək ki, qlobal pandemiya dövrü ərzində "Azercell" ölkədə yeni koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, eləcə də iqtisadi sabitliyin qorunması və əhalinin sosial rifahının yüksəldilməsi üçün hökumət tərəfindən görülən tədbirlərə dəstək məqsədilə bir sıra layihələr həyata keçirib, müxtəlif sosial təşəbbüslərə imza atıb.

## 142 - Çağrı Mərkəzinə aprelin 1-dən 94 minə yaxın zəng daxil olub

Pandemiya ilə əlaqədar sosial dəstək tədbirlərinin geniş miqyas aldığı indiki dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - Çağrı Mərkəzi də gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Yalnız bu ay, yəni aprelin 1-dən 142 - Çağrı Mərkəzinə vətəndaşlar tərəfindən 94 minə yaxın zəng daxil olub.

Əmək, məşğulluq, sosial müdafiə tədbirləri, tibbi-sosial reabilitasiya, habelə hazırda həyata keçirilən sosial dəstək tədbirləri və s. ilə bağlı müraciətlər əməkdaşlar tərəfindən ətraflı cavablandırılır. Sorğu xarakteri daşıyan müraciətlərlə bağlı izahat və məlumatlar verilir.

Çağrı Mərkəzində saat 9:00-dan 24:00-a kimi 100-dək operator tərəfindən zənglər cavablandırılır.

***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi***


Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 21.04.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Beynəlxalq aləm



## ABŞ fermerlərə dəstək üçün 19 milyard dollar ayıracaq

ABŞ hökuməti kənd təsərrüfatını dəstəkləmək və koronavirus pandemiyasının doğurduğu fəsadları aradan qaldırmaq üçün fermerlərə 19 milyard dollar ayıracaq. Bu barədə Prezident Donald Tramp məlumat vermişdir.

Trampın dediyinə görə, proqram istehsalçılara birbaşa ödənişləri, ət, süd və kənd təsərrüfatı məhsullarının kütləvi satınalmalarını ehtiva edəcək.

Ölkənin kənd təsərrüfatı naziri Sonni Perdü bildirmişdir ki, istehsalçılara birbaşa ödənişlər 16 milyard dollar təşkil edəcək, fermerlərin məhsullarının alınmasına 3 milyard dollar ayrılacaq. Bundan əlavə, iyulda Kənd Təsərrüfatı Nazirliyi fermerlərə kömək etmək üçün əlavə olaraq 14 milyard dollar alacaq.

ABŞ-da fermerlər koronavirusun yayılması səbəbindən məhsullarını vaxtında bazara çıxara bilmədiklərinə görə onları məhv etmək məcburiyyətində qalmışlar. Həmçinin pandemiya və məhdudlaşdırıcı tədbirlər üzündən bəzi məhsullara tələbat azalmışdır. Bundan başqa, bir neçə ət istehsalı zavodunda əməkdaşlar arasında koronavirus infeksiyası aşkarlandığından iş dayanmışdır.

## Polşa karantin məhdudiyyətlərini yumşaldır



Polşada koronavirus pandemiyası ilə əlaqədar tətbiq olunmuş karantin məhdudiyyətləri mərhələ-mərhələ yumşaldılacaq. Bu barədə Baş Nazir Mateuş Moravetski məlumat vermişdir.

Moravetski bildirmişdir ki, hökumət karantini tədricən yumşaltmaq üçün plan hazırlamışdır. Sabah başlayacaq birinci mərhələdə meşə və parklar açılacaq. Eyni zamanda yeni ticarət qaydaları tətbiq olunacaq. Sahəsi 100 kvadratmetrədək olan mağazalarda bir kassa aparatı üçün dörd nəfər, 100 kvadratmetrdən çox ticarət sahəsində 15 kvadratmetrdə bir nəfər yerləşəcək. Bundan başqa, kilsə və digər məbədlərdə 15 kvadratmetrdə bir nəfər yerləşə biləcək. İkinci mərhələdə mehmanxanalar, inşaat materialları mağazaları (yalnız istirahət günləri), kitabxanalar, qalereyalar və muzeylər qapılarını açacaq. Üçüncü mərhələdə gözəllik salonları, ticarət mərkəzlərindəki mağazalar açılacaq, 50-dək nəfərin iştirakı ilə idman tədbirlərinin keçirilməsinə icazə veriləcək, uşaq bağçalarında və ibtidai məktəblərdə uşaqların maksimal sayı müəyyənləşdiriləcək.

Teatrlar, kinoteatrlar, trenajor zalları, fitnes-klublar, masaj kabinetləri dördüncü mərhələdə açılacaq. Növbəti mərhələlərə keçidin tarixləri hələ müəyyənləşdirilməmişdir. Qərar xəstəliyə yoluxma hallarının dinamikasının, sanitar normalara riayət olunmasının və səhiyyə sisteminin effektivliyinin təhlili əsasında qəbul olunacaq.

## Koronavirus pandemiyası qlobal ərzaq sistemində problemlər yarada bilər



Yeni tip koronavirusun pandemiyası yaxın aylarda qlobal ərzaq sistemində çətinliklər yarada bilər. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) bildirmişdir ki, hazırda dünyada hamı üçün kifayət qədər ərzaq var və 2020-ci ildə taxıl ehtiyatları yüksək səviyyədədir. Bununla belə, gələcəkdə müxtəlif çətinliklər ortaya çıxa bilər. FAO-nun bəyanatında deyilir ki, virus yayıldıqca, infeksiyaya yoluxma hallarının sayı artdıqca və məhdudlaşdırıcı tədbirlər gücləndirildikcə qlobal ərzaq sistemi sınaqlarla qarşılaşacaq: "Hazırda ərzaq tədarükü yetərli səviyyədə və bazarlar sabit olsa da, logistik maneələrlə üz-üzəyik. Məhsullar A nöqtəsindən B nöqtəsinə çatdırılmır, ona görə də tərəvəz və meyvə kimi yüksək qidalandırıcı məhsullar az istehsal olunur".

Təşkilat dünya dövlətlərini ərzaq malları təchizatı zəncirində və ərzaq istehsalında fasilələrə yol verməmək üçün lazımi tədbirləri görməyə və beynəlxalq ticarəti dəstəkləməyə çağırmışdır.

## Türkiyə aviasiyası İraqın şimalında 3 terrorçunu məhv etdi



Türkiyə Hərbi Hava Qüvvələri İraqın şimalında, Avaşin-Basyan bölgəsində PKK terrorçu təşkilatının mövqelərinə hücum edib üç silahlını zərərsizləşdirmişdir.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinə istinadən "Anadolu" agentliyi xəbər verir.

Nazirliyin məlumatında deyilir ki, terrorçuların olduğu yer pilotsuz təyyarələr vasitəsilə müəyyən edilmiş, bundan sonra verilmiş koordinatlara görə hava zərbəsi endirilmişdir. Türkiyə Silahlı Qüvvələri əməliyyatlarını bölgədə terror təhlükəsi tamamilə aradan qalxanadək davam etdirəcək.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7360
Sifariş 931
Qiyməti 40 qəpik